# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 209 (8525) BAZAR, 11 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# ÜÇ CƏBHƏNİN SƏRKƏRDƏSİ

## İLHAM ƏLİYEV kimi övladınla fəxr et, vətən!

**Azərbaycan Ermənistanın növbəti təxribatına yenə əks-hücumla cavab verdi!**

**Bu dəfə atəşkəsin pozulması hərbi əməliyyatların bərpası, Qarabağ uğrunda yeni - ikinci müharibənin başlanması ilə nəticələndi!**

Müharibə qan, ölüm, itki deməkdir və heç kim müharibə istəmir!

*Amma acı bağırsaq kimi uzanan mənasız sülh danışıqlarından bezən xalqımız müharibənin başlanmasını böyük ruh yüksəkliyi, xüsusi coşqu ilə qarşıladı!*

*Çünki daha heç kəs 30 il gözləmək, "sülh danışıqları"na vaxt itirmək istəmirdi!*

*Çünki hamı əmin olmuşdu ki, münaqişənin yeganə həlli variantı daha sülh danışıqları deyil, müharibədir!*

*Çünki açıq-aydın görünürdü ki, Ermənistanın qudurmuş, kriminal hərbi-siyasi rəhbərliyi nə sülh danışıqlarına gəlir, nə də torpaqları qaytarmaq niyyətindədir!*

*Çünki uzun illərdir ki, ATƏT-in Minsk qrupu və digər beynəlxalq qurum və təşkilatlar BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsini həyata keçirməyərək "icra mexanizmi yoxdur" deməklə yaxasını kənara çəkir, danışıqlar prosesini boşuna yola verirdi.*

Belədə torpaqları işğaldan yalnız Azərbaycan əsgərinin gücü ilə təmizləməkdən, min bir hüququ pozulmuş məcburi köçkünləri doğma yurd-yuvasına silah gücü ilə qaytarmaqdan başqa yol qalmamışdı!

**Azərbaycan xalqı bu yolu özünün qəhrəman övladına, mahir diplomatına, dünya çaplı liderinə arxalanmaqla seçirdi!**

**Bilirdi ki, İlham Əliyev ötən 17 ildə olduğu kimi, bu savaşda da xalqının etimadını doğruldacaq, torpaqları murdar xislətlilərdən, yolunu azmış qudurmuşlardan sonadək təmizləyəcək, işğalçı Ermənistan əsgərlərini Azərbaycan torpaqlarından iti qovan kimi qovacaqdır!**

*Hərbi əməliyyatların başlandığı ilk dəqiqələrdən Ali Baş Komandanımız xalqın bu etimadını doğrultmaq qüdrətində olduğunu sübut etdi!*

*Həm də eyni vaxtda üç cəbhədə böyük hünər və şücaətlə çarpışmaqla!*

❖ ❖ ❖

Televiziya vasitəsilə xalqa müraciət edən Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının işğal altındakı torpaqları azad etmək uğrunda Vətən müharibəsinə başladığını bildirdi.

Hərbi əməliyyatlar davam edən müddətdə bir neçə dəfə telekanallarda çıxışlar etdi, müsahibələr verdi.

Özünün Tvitter səhifəsində yazdı!

**İlham Əliyevin Vətən müharibəsinin qısa dövründəki gərgin, çoxcəhətli, intensiv və səmərəli fəaliyyətini izləyərək bir Azərbaycan vətəndaşı kimi öz Prezidentimi, rəhbərimi, Ali Baş Komandanımı yenidən kəşf etdim, bir daha onunla qürur duydum!**

Biz Prezidentimizi daim soyuqqanlı, təmkinli, emosiyadan uzaq, son dərəcə ölçülü-biçili danışan və davranan bir siyasi və dövlət xadimi kimi görməyə adət etmişik.

Budəfəki çıxışlarında isə bütün bunlarla bahəm, onun nə qədər böyük vətənpərvər olduğunu, torpaqların işğalından, xüsusən Şuşa ilə bağlı ermənilərin murdar əməllərindən nə qədər təsirləndiyini, içində böyük qəzəb və hiddət olsa da, daima öz hisslərini boğub saxladığını anladıq, duyduq!

İlk dəfə idi ki, o düşmənə açıq və sərt tərzdə müraciət etdi, onu döyüş meydanında məğlub edərək aşağıladı və azğın işğalçıya nifrətini büruzə verdi!

*Ardı 4-cü səh.*

## "Göstərdiyiniz qətiyyətə, xalqımız üçün gördüyünüz işlərə görə Sizə minnətdarıq"

Azərbaycan Ordusunun cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurması, bir sıra yaşayış məntəqələrini azad etməsi, əldə etdiyi digər qələbələr vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, həmçinin bir sıra digər ölkələrin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc və qürur hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Rusiyanın Vladimir şəhərindən **Təranə Xəlilova** dövlət başçısına minnətdarlığını bu sözlərlə ifadə edir: "Əziz Prezidentimiz. Sizə olan minnətdarlığımı sözlə ifadə etməkdə çətinlik çəkirəm. Sizin gördüyünüz işin dəyəri olduqca böyükdür. Bu günlərdə özümü çox xoşbəxt hiss edirəm. Bu, Sizin sayənizdədir. Allah Sizi, bütün ailə üzvlərinizi qorusun. Mən Qarabağ bölgəsində doğulmasam da, bütün bu illər ərzində oranın işğal altında olması daim səadətli anlarıma kölgə salıb. Allah Sizin kölgənizi Azərbaycanın başı üzərindən əskik etməsin. Sizə nə qədər təşəkkür etsəm, yenə də azdır. Çox sağ olun. Nə yaxşı ki, varsınız".

*Ardı 2-ci səh.*

## Azərbaycan, Rusiya və Ermənistan Xarici İşlər nazirlərinin birgə bəyanatı qəbul edilib

Rusiya tərəfinin təşəbbüsü əsasında oktyabrın 9-10-da Moskva şəhərində keçirilən görüş nəticəsində Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirlərinin bəyanatı qəbul edilib.

AZƏRTAC xəbər verir ki, bəyanatda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müraciətinə cavab olaraq və Prezident Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında əldə olunmuş razılığa əsasən aşağıdakı addımların atılması razılaşdırılıb:

1. 2020-ci ilin 10 oktyabr tarixi, saat 12.00-dan etibarən humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunur;
2. Atəşkəs rejiminin konkret parametrləri əlavə olaraq razılaşdırılacaq;
3. Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə tənzimlənmənin əsas prinsipləri əsasında münaqişənin tezliklə sülh yolu ilə həlli məqsədilə substantiv danışıqlara başlayırlar;
4. Tərəflər danışıqlar formatının dəyişilməzliyini təsdiq edirlər.

## İlham Əliyev Ermənistana axırıncı şansı verdi

### Döyüş meydanında qalib olan Azərbaycan danışıqlarda da öz şərtlərini diktə edəcək

Prezident, Ali Baş Komandan İlham Əliyev oktyabrın 9-da xalqa müraciətində Vətən müharibəsində əldə olunan növbəti qələbələrin sevincini bölüşdü: zəfər yürüşünü davam etdirən Azərbaycan Ordusu bu dəfə işğal altında olan Hadrut qəsəbəsini, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndlərini düşmən tapdağından azad etdi.

### Humanitar atəşkəs müvəqqətidir

Məlum olduğu kimi, indiyədək münaqişənin həll olunmaması və işğala əsaslanan status-kvonu saxlamaq üçün Ermənistana dəstək göstərilir və danışıqlar prosesi imitasiya olunmuş əsasda aparılırdı. Məqsəd tədricən Azərbaycan torpaqlarının Ermənistan tərəfindən ilhaqına nail olmaq idi. Amma Prezident İlham Əliyev qəti siyasi iradə nümayiş etdirərək 30 il ərzində qurulmuş və daim möhkəmləndirilən bu sistemi darmadağın etdi, Azərbaycanın işğalla heç zaman barışmayacağını sübut etdi. O cümlədən ölkəmizə qarşı hər hansı şərtlərin irəli sürülməsinin qəbuledilməzliyini hamı başa düşdü.

Oktyabrın 9-10-da Moskvada Azərbaycan, Rusiya və Ermənistan Respublikasının Xarici İşlər nazirləri arasında baş tutan danışıqlar respublikamızın əsas tələblərindən olan status-kvonun dəyişdiyi şəraitdə keçirilən ilk görüş idi.

*Ardı 4-cü səh.*

## Danışıqların gündəliyini və məzmununu Azərbaycan müəyyən edəcək

İllərdir həmsədr dövlətlərin yaratdığı cəzasızlıq mühitindən yararlanan Ermənistanın Azərbaycan qarşısında şərt qoymaq, danışıqlar prosesinin formatını dəyişmək kimi bütün iddiaları darmadağın edildi. Azərbaycanın qətiyyətli sərkərdəsi cənab İlham Əliyevin əmri ilə Qarabağda uğurlu əməliyyatlar həyata keçirən Azərbaycan Ordusu işğalçını geri çəkilməyə məcbur etdi. Azərbaycana qarşı iddialarla danışan və sonunda məğlubiyyətin acı nəticələrini yaşayan Nikol Paşinyan ona-buna yalvarmaq məcburiyyətində qaldı.

### Azad olunmuş ərazilərdə Azərbaycan bayrağı dalğalanır

Qarabağda savaş başlayana qədər cənab İlham Əliyev dəfələrlə erməni xalqına müraciət ünvanladı, Paşinyana sərt xəbərdarlıq etdi. Ancaq Paşinyan havadarlarına arxalanıb məkrli xislətini ortaya qoydu və etdiyi hərəkətlərlə savaşın başlanmasına rəvac verdi. O, Xankəndidə "Qarabağ Ermənistandır" sərsəm fikrini səsləndirdikdən sonra açıq-aşkar Qarabağda qanunsuz məskunlaşdırma siyasəti apardığını nümayiş etdirdi. Şuşada qondarma respublikanın qondarma "prezidentinin" inaqurasiya mərasiminə qatılaraq şərab içib, yallı getdi. Elə sandı ki, 30 ildir ikili standartlar prinsipləri səbəbindən münaqişənin sülh yolu ilə həll olunması üçün səbr edən Azərbaycan xalqı bu təhqirə dözəcək. Niyyəti başında çatladı...

17 ildir yürütdüyü müstəqil siyasətlə xalqın milli maraqlarını təmin edən cənab İlham Əliyev Ermənistanın növbəti hərbi təxribatına adekvat cavab vermək üçün Azərbaycan Ordusuna əks-hücum əməliyyatı aparması üçün əmr verdi.

*Ardı 4-cü səh.*

**Düşmənin ümumilikdə 16 komanda məntəqəsi, 209 tankı, 42 BM-21, bir "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 3 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 "Kub" zenit-raket kompleksi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyası və digər hərbi texnikası məhv edilib. 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 27 "İqla" kompleksi və digər avtonəqliyyat vasitələri qənimət götürülüb**



# Göstərdiyiniz qətiyyətə, xalqımız üçün gördüyünüz işlərə görə Sizə minnətdarıq

*Əvvəli 1-ci səh.*

Almaniyanın Köln şəhərindən **Rəşad Quliyev:** "Hörmətli cənab Prezident. Sizin komandanlığınızla rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi üstünlüklər və qələbə xəbərləri Dünya Azərbaycanlıları Assambleyası üzvlərini də son dərəcə sevindirir. İllərdir həyata keçirdiyiniz uğurlu xarici siyasətiniz bu gün də öz bəhrəsini verir. Biz də dünya azərbaycanlıları olaraq bu siyasətinizi dəstəkləyirik və bu yolda üzərimizə düşən öhdəlikləri layiqincə yerinə yetirməyə çalışırıq. Qeyd etmək istərdim ki, biz də öz növbəmizdə Ermənistanın işğalçılıq siyasətini, vandal rəftarını, terrorçu və antihumanist addımlarını dünya ictimaiyyətinə çatdırırıq. Son günlərdə informasiya müharibəsi zəminində bu təşəbbüslərimizi intensivləşdirmişik. Nəzərinizə çatdırmaq istərdim ki, Sizin "Qarabağ Azərbaycandır!" şüarınız beynəlxalq aləmdə devizimizə çevrilib. Dünya azərbaycanlıları yekdilliklə Sizin arxanızdadır. Hörmətli cənab Prezident, dünya azərbaycanlıları birmənalı şəkildə Sizin mövqeyinizi dəstəkləyir və erməni işğalçılar işğal olunmuş əraziləri tərk etməyənədək durmaq yox, ancaq irəli getmək lazımdır.

Qazaxıstanın Almatı şəhərindən **Qəhrəman Sadiyev** yazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Biz xaricdə yaşayan azərbaycanlılar son günlərdə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonlarında Sizin rəhbərliyinizlə ordumuzun terrorçulara qarşı apardığı mübarizədə Sizi dəstəkləyirik. Uzun illər düşmən tapdağı altında inləyən torpaqlarımızın azad olunması naminə apardığınız ədalətli mübarizədə Sizinləyik və hər zaman Sizin yanınızda olduğumuzu bəyan edirik. Qürurla, mətanətlə döyüşməyə, torpaqlarımızı düşmənlərdən azad etməyə son damla qanımıza qədər hazırıq".

İsrailin paytaxtı Təl-Əvivdən **David Rafaeli:** "Hörmətli cənab Prezident. 2019-cu ildə ölkənizə səfərim zamanı Azərbaycanın güclü və qüdrətli ölkəyə çevrilməsi istiqamətində hər yerdə mərhum atanızın əməyini və hazırda Sizin səylərinizi gördüm ki, bunu da çox yüksək qiymətləndirirəm. Səfərim zamanı çox zəngin tarixə və mədəniyyətə sahib bir ölkə gördüyüm üçün xoşbəxt idim. Azərbaycanda İsrail Dövlətinə və yəhudi icmasına qarşı gördüyüm xoş münasibətə görə, cənab Prezident, Sizə xüsusi təşəkkür edirəm. Bütün bu faktlar məndə Azərbaycan və onun vətəndaşları haqqında yalnız müsbət fikirlər yaradıb.

Sizə və ailənizə cansağlığı və xoşbəxtlik arzulayır, Tanrıdan torpaqlarınızın müharibələr olmadan tam sülh şəraitində Azərbaycan ərazisinə qayıtmasını diləyirəm.

Bir daha təşəkkür edirəm".

Lənkərandan **Elxan Mahmudovun** məktubunda deyilir: "Hörmətli cənab Prezident. Bu məktubu Sizə sevinc və vüqardan qəhərlənərək yazıram. Lovğalanaraq "biz qalib millətik, bizim qurduğumuz istehkamları dünyanın heç bir ordusu dağıda bilməz" deyən erməni dığalarına sentyabrın 27-də Azərbaycan Ordusu layiqli cavab verdi. Düşmənin ağızdolusu danışdığı istehkamlar qısa müddətdə darmadağın edildi, bir sıra kəndlərimiz işğaldan azad olundu. Xalq Sizin arxanızdadır, cənab Prezident. Xalq Sizin iradənizə, mətnliyinizə güvənərək son damla qanına qədər vuruşmağa hazırdır. Bu xalqın qəlbində Sizin heykəliniz ucalmışdır.

Zəfər bizimlədir. Qarabağ Azərbaycandır!"

Qusardan **Yuri Kərimov:** "Cənab Ali Baş Komandan. Bu gün doğma torpaqlarımızın mənfur düşmənin işğalından azad edilməsi üçün verdiyiniz əmr şanlı ordumuzun həyata keçirdiyi uğurlu əməliyyatlarla başa çatdırılır. Düşmənin ordusu darmadağındır, onlarla döyüş texnikaları məhv edilir. Biz qusarlılar inanırıq ki, Azərbaycan xalqının 30 illik nisgilinə Sizin rəhbərliyinizlə son qoyulacaq və bütün torpaqlarımız işğaldan azad ediləcək. Gələcək nəsillərin xoşbəxtliyi üçün atılan bu addım xalqımız tərəfindən böyük qələbə sevinci ilə qeyd ediləcəkdir. Azərbaycan Ordusu Sizin Ali Baş Komandanlığınızla düşmən üzərində layiqli zəfər çalacaq. Bu zəfər Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır.

Bu müqəddəs işinizdə Ulu Tanrı Sizə yardımçı olsun. Allah Sizi qorusun".

Zaqataladan **Şəfa Əmirxanova** yazır: "Hörmətli cənab Prezident.

Bu gün Azərbaycan xalqına yaşatdığınız qürura görə Sizə minnətdarlığımızı bildiririk. Sizin verdiyiniz hər bir əmri, tapşırığı dəstəkləyirik. Çünki bütün bunlar Azərbaycanın mənafeyinə xidmət edir, bizi uğurlara daşıyır. Azərbaycan xalqının birliyi, ordumuzun qüdrəti qarşısında düşmən tab gətirə bilməz. Son günlər cəbhədə baş verən döyüşlər bunu bir daha sübut etdi.

Torpaqlarımızın azadlığı yolunda hər birimiz canımızı verməyə hazırıq. Şüarımız birdir: Qarabağ Azərbaycandır!"

Şamaxıdan **Sərvan İsmayılov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Ordumuzun düşmənin ön xəttini bir neçə saata darmadağın etməsi göstərdi ki, bizim üçün işğalçıları torpaqlarımızdan təmizləmək mümkündür. Bu cür mükəmməl, bu cür nizami ordunun yaranması Sizin qətiyyətinizin, mahir komandanlıq istedadınızın nəticəsidir.

Əziz Prezidentimiz, bu haqq yolunda Sizə və şanlı ordumuza uğurlar arzu edir, dualarımızın Sizinlə olduğunu bildirirəm. Otuz illik Qarabağ həsrətinə son qoymaq üçün gördüyünüz işlər tarix dərsliklərində əsrlər boyu öyrəniləcəkdir".

Bakı şəhərindən **Alışan Süleymanovun** yazdığı məktubda deyilir: "Hörmətli cənab Prezident. Vətənimizin müstəqilliyi və bütövlüyü uğrunda zəhmətiniz hədsizdir.

Erməni qəsbkarları tərəfindən ölkəmizin işğal altına salınmış torpaqlarının azad edilməsi üçün Sizin prinsipiallığınız xalqımızı ruhlandırır, sevindirir. Qarabağı erməni əsarətindən qurtarmaq barədə əzmkarlığınız və siyasi döyüşkənliyiniz bizim xoşbəxtliyimizdir, qürurumuzdur.

Allah Sizi, ordumuzu, xalqımızı sevindirsin.

Tanrı Sizə, ordumuza və xalqımıza yar olsun".

Bərdə rayonundan **İlham Mustafayev** dövlət başçısına təşəkkürünü bu sözlərlə çatdırır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan.

Erməni işğalçılarına qarşı apardığınız haqq mübarizənizi dəstəkləyir, Azərbaycan xalqına qələbə arzulayıram.

Ağdam rayonundan məcburi köçkün kimi tezliklə öz doğma torpaqlarımıza qayıdacağımız anı həsrətlə gözləyirəm.

Tanrı tezliklə Qələbə gününü qeyd etməyi bizə nəsib etsin. Sizə, ordumuza və xalqımıza güvənirəm".

Ağcabədidən **Yusif Qəhrəmanov:** "Möhtərəm cənab Prezident. Sizin qətiyyətinizlə yazılan yeni tarix həm də dünyanın axarını dəyişəcək. Hamı hadisələrə yeni gözlə baxacaq. Ləyaqətli, ədalətli, sülhsevər Azərbaycanı dəstəkləyən ölkələr haqqın harada olduğunu bilirlər.

Bir vətəndaş kimi yaşadığımız hisslərə görə Sizə minnətdarlığımı bildirirəm. 30 illik həsrətimizə son qoyaraq torpağlarımızı düşmənlərdən aldınız.

Sizi və Azərbaycan xalqını təbrik edirəm".

Saatlıdan **Vüqar Məmmədov** yazır: "Möhtərəm Ali Baş Komandanımız. 30 ilə yaxın hamımızın nigaranlıqla və həsrətlə, lakin böyük ümidlə gözlədiyimiz bu günləri bizlərə yaşatdığınız üçün Sizə böyük minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Siz şanlı müzəffər ordumuzla birgə tarix yazdınız, cənab Prezident. Bu, Yeni Azərbaycan tarixidir. 30 il sonra yuxularımız gerçəkləşir. Buna görə xalqımız Sizi daim qəlbində yaşadacaqdır. Adınız qızıl hərflərlə tarix kitablarımıza yazılacaq, qəlblərimizə həkk olacaqdır.

Siz müstəqil və müasir Azərbaycanın əfsanəvi qəhrəmanı, Ulu Öndər məktəbinin layiqli varisisiniz. Sizin "Qarabağ Azərbaycandır!" şüarınız min illərin şüarı olacaqdır. Bu qətiyyətli şüarla, bir qəhrəman sərkərdə kimi başladığınız əməliyyatın uğuru və zəfəri daim yaşayacaqdır.

Siz xalqın qürur mənbəyisiniz. Mən Sizinlə fəxr edirəm, cənab Prezidentim. Rəhbərliyinizlə Silahlı Qüvvələrimizin qəhrəmancasına döyüşərək, qanı və canı ilə alınan torpaqların böyük sevincini bölüşür, Sizi və Mehriban xanımı təbrik edirəm, uğurumuzun davamlı olmasını və bayrağımızı Şuşa və Xankəndidə dalğalandırmaq ümidi ilə ayrılıram.

Eşq olsun Sizə, Ali Baş Komandanımız. Yaşasın müstəqil və müasir Azərbaycan! Qarabağ Azərbaycandır!"

Biləsuvardan **Orxan Qubadlı** da sevinc və minnətdarlıq hisslərini dövlət başçısı ilə bölüşüb: "Hörmətli cənab Prezident. Göstərdiyiniz qətiyyətə, xalqımız üçün etdiyiniz hər bir işə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Rəhbərlik etdiyiniz bir ölkədə yaşamaqdan qürur duyuruq. Hamımız yaxşı bilirik ki, indi Sizin üçün qayğılı bir vaxtdır. Amma böyükdən kiçiyə bütün insanlar Sizinlə birlikdədir.

Torpaqlarımızın qaytarılmasını 30 il gözlədik və indi şərəfli bir yoldayıq. Xalqımız mübarizəmizdə sona qədər Sizinlədir. İnşallah, Qələbə bizimlədir. Allah Sizi və əsgərlərimizi qorusun!

Cənab Ali Baş Komandan, hər an silaha sarılıb Vətənimiz uğrunda vuruşmağa hazırıq".

Salyan rayonundan **Xalidə İslamova:** Hörmətli cənab Prezident.

İlk öncə Sizi salamlayır və əldə etdiyiniz nailiyyətlərə görə Sizi təbrik edirəm. Mən Salyan rayonundan yazıram. Siz bir dövlət başçısı və ya bir Ali Baş Komandan kimi öz üzərinizə düşən vəzifəni layiqincə və artıqlaması ilə yerinə yetirib, daim xalqın arxasında olursunuz. Güclü siyasətiniz və dövlətə, millətə, Vətənə, xalqa olan dərin sevginizin gücündən çox uğurlu addımlar atıb, torpaqlarımızı yağı düşmənin əlindən alırsınız. Vətən demək xalq deməkdir. Xalq isə torpaq deməkdir. Çünki bir xalq, millət və gələcək nəsillər bu torpaqlarda yetişir. Bu gün işğal altında olan torpaqlarımızı aldığınız və ərazi bütövlüyümüzü qoruduğunuz üçün Sizə çox minnətdaram.

Yevlaxdan **Şakir İmanov yazır:** "Möhtərəm cənab Prezident. Artıq illərlə gözlədiyimiz gün gəlib çatıb. Biz Sizə inanırıq və Sizin yanınızdayıq. Sizin uğurlu siyasətiniz nəticəsində Azərbaycan Ordusu formalaşmışdır. Həmin siyasət və güclü Azərbaycan Ordusu ilə bütün işğal altında olan torpaqlarımızı işğaldan azad edəcəyik. Bu gün bizə yaşatdığınız bu sevincə görə Sizə təşəkkür edirik.

Cənab Prezident, bu gün hər birimiz bu Vətən müharibəsində Qələbə qazanmağımız üçün əlimizdən gələni edirik. Azərbaycan xalqı daim Sizinlə fəxr edib, edir və edəcək. Biz inanırıq ki, yaxın zamanda üçrəngli bayrağımız zəbt olunmuş torpaqlarımızda dalğalanacaq".

Siyəzəndən **Xancan Hüseynov** Prezident İlham Əliyevə minnətdarlığını bu sözlərlə ifadə edir: "Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan. Torpaqlarımızın azad edilməsi münasibətilə Sizi və şanlı ordumuzu təbrik edirəm, bütün əsgər balalarımızı bağrıma basıram.

Cənab Prezident, İnşallah, Şuşada, Cıdır düzündə bayrağımızı ucaldaq, qoy Paşinyan və onun quldur dəstəsi görsün ki, Şuşada məclis qurub kabab yeməklə, orada rəqs etməklə Azərbaycan xalqına meydan oxumağın qarşılığı nə imiş!"

Laçın rayonundan məcburi köçkün **Tapdıq Abbasovun** məktubunda deyilir: "Cənab Ali Baş Komandan. Laçın rayonundan məcburi köçkünəm. Sumqayıt şəhərində müvəqqəti məskunlaşmışam. Ermənistan ordusunun vəhşiliyini öz gözlərimlə görmüşəm və mənim doğma Laçınım da erməni işğalı altındadır.

Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Azərbaycan xalqının tarixi, əzəli-əbədi torpağı olan Dağlıq Qarabağ və ətraf yeddi rayon Ermənistan ordusunun işğalından azad olunacaqdır. Bundan ötrü əks-hücum əmriniz hamımızın ürəyindən oldu. İllərlə bu günün həsrətində olmuşam. Qələbəyə köklədiyiniz Azərbaycanın nizami ordusu torpaqlarımızın işğaldan azad olunmasında qəhrəmanlıq göstərir, yenilməz əzmkarlıqla vuruşur.

Siz Ulu Öndərimiz Heydər Əliyevin oğlusunuz. Ulu Öndərimizin adını, şərəfini uca tutursunuz, onun siyasi kursunu ləyaqətlə davam etdirirsiniz. Siz xalqımızın nicat yeri, döyünən ürəyisiniz. Uca Tanrı Sizi qorusun, Allah Sizə yar olsun.

Hədsiz ürəkaçan işlər məhz Sizin rəhbərliyiniz sayəsində bərqərar olmuşdur. Xalq-dövlət birliyi, möhtəşəm Vətən sevgisi məhz Sizin müdrik siyasətinizin nəticəsidir.

Müəllim işləmişəm. 73 yaşım var. Fəaliyyətim dövründə dərs dediyim şagirdləri elini-obasını, Vətənini, dövlətini sevən ruhda tərbiyə etmişəm. Onlar arasında ordu sıralarında vuruşan, rayon, respublika səviyyəli kadrlar yetişmişdir. İndi Vətənimizdə müharibə gedir. Həmişə olduğu kimi, Vətən savaşında da Sizin arxanızdayam, bundan şərəf duyuram. Əsgərlərimizin yanında olmağa hazıram.

Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə otuz illik Vətən həsrətimin sonu çox yaxındadır. Qələbə müjdəsi və Sizə cansağlığı arzulayıram. Uca Tanrı Sizi qorusun. Allah Sizə yar olsun".

Ağdaşdan **Samir İsrəfilov** yazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Mən Ağdaş rayon sakini olaraq 27 sentyabr tarixindən əzəli və əbədi düşmənlərimiz olan ermənilərin torpaqlarımızdan çıxarılması üçün şanlı ordumuza verdiyiniz əmrdən çox şad oldum. Rəhbərliyinizlə şanlı ordumuzun Qələbə müjdəsini bizlərə çatdırmağınızdan ailəlikcə çox sevinirik. İnanıram ki, hamı kimi mənim də 30 illik Qarabağ həsrətimə Sizin komandanlığınızla son qoyulacaq.

Möhtərəm Ali Baş Komandan, Qələbənin çox yaxında olduğuna və Qarabağ torpağına bir daha ayaq basacağıma inanıram. Allah Azərbaycan xalqını qorusun. Qarabağ Azərbaycandır!"

Qazaxdan **Könül Kərimova:** "Hörmətli cənab Ali Baş Komandan. Uzun illərdir ki, Azərbaycanımızın Qarabağ bölgəsi işğal altındadır. 27 ildən sonra doğma torpaqlarımızın azad edilməsi ilə bağlı verdiyiniz əmr bütün azərbaycanlılar kimi mənim də ürəyimcədir. Hər birimizin Sizin aldığınız qərarları dəstəklədiyimizi və yanınızda olduğumuzu demək istəyirəm. Bu çətin, eyni zamanda şərəfli yolda Allah köməyimiz olsun. Allahın izni ilə yaxın zamanda bütün Azərbaycan xalqına böyük Qələbə xəbəri verəcəyinizə inanır və həmin xəbəri səbirsizliklə gözləyirik.

Yaşasın Azərbaycan əsgəri! Yaşasın cənab Ali Baş Komandan!"

Bakıdan **Gözəl Xasıyeva yazır:** "Cənab Prezident İlham Əliyev. Nəhayət ki, gözlədiyimiz gün gəldi, torpaqlarımızın azadlığı uğrunda ordumuz ayağa qalxdı. Qələbə günü uzaqda deyil. Bir şəhid anası kimi ən böyük arzum axır ki, gerçəkləşir: yağı düşmən Qarabağımızdan qovulur.

Qarabağ azad olunan gün bütün şəhid ruhları bayram edəcək. Bu arzuma çatmağa da çox qalmayıb.

Mən şəhid Milli Qəhrəman Samir Xasıyevin anasıyam. Ali Baş Komandanımız, Qələbə xəbərini Sizin elan edəcəyiniz günü səbirsizliklə gözləyirəm.

Qələbə bayrağını Qarabağda ucaltmaq şərəfinə Siz layiqsiniz, çünki məhz Sizin qətiyyətli, uzaqgörən siyasətiniz xalqımızı Qələbəyə qovuşduracaq.

Çox sağ olun, əziz Prezidentim!"

# Yaponiyanın Azərbaycandakı səfiri Ermənistanın son təxribatları və ordumuzun əks-hücum əməliyyatları barədə məlumatlandırılıb



Oktyabrın 9-da Milli Məclisin Sədri Sahibə Qafarova Yaponiyanın ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, Milli Məclisin Sədri qonağı salamlayaraq onu ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib. Yaponiyanın Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu bildirən Spiker hazırda ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələr üzrə inkişaf etdiyini qeyd edib. Xüsusilə iqtisadiyyat və investisiya sahələrində geniş əlaqələrimizin olduğu məmnunluqla vurğulanıb.

Spiker Azərbaycanla Yaponiya arasında münasibətlərin inkişafında parlamentlərin rolunu xüsusi vurğulayıb. O, hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qruplarının sıx münasibətlərinin bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında bəzi faktları Yaponiya səfirinin diqqətinə çatdıran Sahibə Qafarova ötən dövr ərzində beynəlxalq təşkilatlar tərəfindən münaqişəyə dair qəbul olunan sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri barədə məlumat verib. Sədr 1994-cü ildə atəşkəs sazişinin imzalanmasına baxmayaraq, Ermənistan tərəfinin bu sazişə və digər beynəlxalq öhdəliklərinə əməl etmədiyini, bu günə qədər də təxribatlarını davam etdirdiyini vurğulayıb. O bildirib ki, son zamanlar bu təxribatlar daha da artıb.

Milli Məclis Sədrinin sözlərinə görə, Ermənistan silahlı qüvvələri iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatların ardınca sentyabrın 27-də növbəti dəfə təmas xəttində yerləşən kəndlərimizə, hərbi mövqelərimizə hücum edib. Ermənistan yenə də mülki vətəndaşları hədəfə alır, Gəncə, Mingəçevir şəhərləri işğalçı ölkə tərəfindən raketlərdən atəşə tutulur. Sahibə Qafarova deyib ki, Ermənistanın raketlərdən intensiv atəşə tutduğu şəhər və rayonlarımızda strateji nəqliyyat, enerji infrastrukturu yerləşir. Bu da Ermənistanın işğalçılıq siyasətinin bütün regionu hədələdiyini və regionun digər dövlətləri üçün də təhlükə mənbəyi olduğunu göstərir.

Azərbaycanın Ali Baş Komandanının rəhbərliyi ilə şanlı ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatları barədə də səfiri məlumatlandıran Spiker qeyd edib ki, dünyanın ən güclü orduları sırasında yer alan qüdrətli Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının qarşısını qətiyyətlə alır, işğal altındakı bəzi ərazilərimiz artıq azad edilib. Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan əsgərləri öz torpaqlarında döyüşür və bizim heç kəsin torpağında gözümüz yoxdur. Azərbaycan xalqı öz torpaqlarının azad olunmasını istəyir.

Sahibə Qafarova həmçinin diqqətə çatdırıb ki, Ermənistan tərəfindən xarici terrorçu qruplaşmaların üzvlərinin, muzdluların Azərbaycan Ordusuna qarşı döyüşmək məqsədilə işğal altındakı torpaqlarımıza göndərilməsi təşkil olunur. Bu da beynəlxalq hüquqa zidd olmaqla, beynəlxalq təhlükəsizliyin pozulmasına şərait yaradan amildir.

Ölkəmizdə yeni fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən səfir Cuniçi Vada Azərbaycanın sabit, təhlükəsiz və dinamik inkişaf edən ölkə olduğunu bildirib. O, ölkəsinin parlamentinin rəhbərliyinin salamlarını Milli Məclisinin Sədrinə çatdırıb. Cuniçi Vada ölkələrimiz arasında münasibətlərin məmnunluq doğurduğunu söyləyib.

Yaponiya səfirliyi tərəfindən həyata keçirilən "Ot kökləri və insan təhlükəsizliyi" qrant yardımı proqramı çərçivəsində keçirilən layihələr haqqında məlumat verən diplomat ümidvar olduğunu bildirib ki, gələcəkdə bu layihələr Azərbaycanın bütün regionlarında reallaşdırılacaq.

Sonda Spiker Sahibə Qafarova səfir Cuniçi Vadanın fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inandığını bildirib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycan Respublikasının ərazisi olan Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələri tərəfindən başlanılan və gərginliyin artmasına, eləcə də insanların həlak olmasına səbəb olan bu münaqişəni kədər hissi ilə izləyirik.

Biz, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri insanların həlak olması ilə əlaqədar başsağlığı verir və yaranmış vəziyyətlə əlaqədar dərin narahatlığımızı bildiririk. BMT Təhlükəsizlik Şurasının 30 il əvvəl qəbul etdiyi qətnamələrə baxmayaraq, heç nə dəyişməyib. 1994-cü ildə Ermənistan və Azərbaycan arasında atəşkəs müqaviləsi imzalansa da, Azərbaycan vətəndaşları, o cümlədən qadınlar və uşaqlar hələ də erməni təcavüzünün qurbanı olurlar. Azərbaycanın mülki vətəndaşlarına və mülki hədəflərinə qarşı həyata keçirilən bu hücumlar beynəlxalq humanitar hüququn və insan haqlarının kobud şəkildə pozulmasıdır.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri mərkəzin katibliyi ilə birlikdə bu problemi bütün maraqlı tərəflərin diqqətinə çatdırmaq məqsədilə fəal şəkildə işləyir, müzakirələr və onlayn diskussiyalar təşkil edir, məqalələr yayır, müsahibələr verirlər.

Sizin rəhbərliyiniz, eləcə də Vayra Vike-Freyberqa və İsmayıl Serageldinin həmsədrliyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq liderlik rolunu öz üzərinə götürməsinə görə minnətdarlığımızı qəbul etməyinizi xahiş edirik. Biz beynəlxalq təşkilat olaraq öz fəaliyyətimizdə Sizin davamlı dəstəyinizə ümid edirik.

Cənab Prezident.

Sizə olan rəğbətimizlə yanaşı, yüksək hörmət və ehtiramımızı da qəbul etməyinizi rica edirik.

*Hörmətlə,*

***Əbdüləziz Osman ƏL-TUVEYCRİ,***
***İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) sabiq Baş direktoru***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Valdis ZATLERS,***
***2007-2011-ci illərdə Latviyanın Prezidenti***

***Ana BİRÇAL,***
***Rumıniyanın Baş Nazirinin sabiq müavini, sabiq Ədliyyə Naziri və Avropa məsələləri üzrə sabiq nazir***

***Amina QURİB-FAKİM,***
***2015-2018-ci illərdə Mavriki Respublikasının Prezidenti***

***Buyar NİŞANİ,***
***2012-2017-ci illərdə Albaniyanın Prezidenti***

# *Hikmət HACIYEV:* "Hərbi qələbələrimizin davamı olaraq diplomatik-siyasi cəbhədə də üstünlüyümüz davam edir"



"Ermənistan Cəbrayılda, işğal olunmuş digər ərazilərdə süni məskunlaşdırma siyasəti aparırdı və Ermənistanın bu addımına reaksiya verilmirdi. Artıq indi təmas xətti anlayışı yoxdur. Ermənistan təmas xəttini guya qondarma rejimlə Azərbaycan arasında sərhəd anlayışı kimi təqdim etmək istəyirdi".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 10-da keçirilən mətbuat konfransında deyib.

Sülhə məcburetmə əməliyyatının birinci mərhələsinin başa çatdığını qeyd edən Prezidentin köməkçisi bildirib: "Beynəlxalq ictimaiyyətin çağırışına cavab olaraq Ali Baş Komandanın tapşırığı ilə Xarici İşlər naziri Moskvada danışıqlarda iştirak etdi. Müvəqqəti atəşkəs Cenevrə Konvensiyasından da irəli gələn addımdır. Ancaq Ermənistan bundan da istifadə edir, atəşkəsi pozur və xarici jurnalistlər də yerlərdə bunu qeydə alırlar".

Hikmət Hacıyev diqqətə çatdırıb ki, 10 gün ərzində Cəbrayıl şəhərinin və onun kəndlərinin, eyni zamanda Dağlıq Qarabağda Hadrut yaşayış məntəqəsinin və ətraf kəndlərin işğaldan azad edilməsi Ermənistana böyük psixoloji zərbədir. Prezidentin köməkçisi həmçinin vurğulayıb: "Münaqişələr tək hərbi deyil, hərbi-siyasi yolla da davam etdirilir. Əsgərlərimizin qazandığı uğurları diplomatik cəbhədə davam etdirməliyik. Hərbi qələbələrimizin davamı olaraq diplomatik-siyasi cəbhədə də üstünlüyümüz davam edir".

* * *

Qardaş Türkiyə ATƏT-in Minsk qrupunun üzvü kimi artıq masadadır.

Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində proseslərin başlamasının ilk günündən yaxından iştirak etdiyini vurğulayan Prezidentin köməkçisi deyib ki, yaranmış indiki reallıqda biz qardaş Türkiyədən daha böyük əzmlə proseslərdə aktiv iştirak etməsini gözləyirik. Türkiyə regionda qonşu ölkədir. Cənubi Qafqaz regionunda baş verən gərginliklər Türkiyəni də ciddi narahat edir. Türkiyə bu regionda davamlı sülhün təmin edilməsində öz səylərini davam etdirir. İstər Minsk qrupu formatı, istərsə də Minsk qrupu formatını dəstəkləyəcək digər formatlar çərçivəsində qardaş Türkiyənin region dövləti və söz sahibi olan bir ölkə olaraq bu prosesdə yaxından iştirakı gözlənilir. Əminik ki, Türkiyə də bu prosesə əsaslı töhfəsini verəcək.

"Nəhayət, regionda davamlı sülh və təhlükəsizlik təmin olunsun. O mənada ki, Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən tamamilə çıxsın. Bu, bütün region dövlətlərinin marağında olan məsələdir. Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyi barədə reallığı anlamalıdır. Təəssüf ki, bu günə qədər bunu anlamır", - deyə Prezidentin köməkçisi qeyd edib.

* * *

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü davam edir. Xarici İşlər naziri Ceyhun Bayramovun Moskvaya səfəri zamanı Minsk qrupunun həmsədrliyi və digər vasitəçilərin iştirakı ilə müvəqqəti atəşkəslə bağlı qəbul edilmiş bəyanatdan sonra da təmas xətti boyunca ermənilərin Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə və mülki azərbaycanlılara qarşı hücumları davam etməkdədir.

Prezidentin köməkçisi deyib: "Bu, açıq şəkildə onu göstərir ki, Ermənistan tam şəkildə riyakar siyasət həyata keçirməkdədir və humanitar əsaslarla müəyyən olunmuş atəşkəs rejimini pozmaqda davam edir".

* * *

Azərbaycana müxtəlif təzyiqlər var və Prezident, Ali Baş Komandan İlham Əliyev bu təzyiqlərə mərd-mərdanə sinə gərməkdədir.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycanın heç bir dövlətin ərazisinə iddiası yoxdur. Bizim məqsədimiz ərazi bütövlüyümüzü təmin etməkdir. Əgər Ermənistan humanitar əsaslarla olan bu atəşkəsin pozulması üçün təxribatları davam etdirəcəksə, Azərbaycan özünümüdafiə hüququndan istifadə etməklə cavab verməK məcburiyyətindədir.

* * *

Son proseslər göstərirdi ki, Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyildi.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan status-kvonu qoruyub saxlamaq siyasətini yürüdürdü. Nikol Paşinyanın "Qarabağ Ermənistandır" deməsi danışıqlar prosesinə zərbə idi. Ermənistanda bəziləri özlərini hələ də qalib saymağa, işğalı davam etdirməyə çalışırdılar. Azərbaycanın əks-hücumu nəticəsində Ermənistanın illüziyaları darmadağın edildi. Ermənistan silahlı qüvvələrinə 10 gün ərzində böyük zərbə vuruldu. Ermənistanın ən döyüşkən hərbi hissələri darmadağın edildi. Ermənistan o hərbi sistemi, infrastrukturu 30 il ərzində formalaşdırmışdı. Ermənistanın hücumlarına yenə də cavablar verilir.

Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan bu əməliyyatla status-kvonu dəyişdirdi. Artıq Azərbaycan bir çox torpaqlarını geri qaytarıb. Təmas xətti yoxdur. Beynəlxalq çağırışlara uyğun olaraq atəşkəs rejimi bərpa olunub. Ancaq Ermənistan bu vəziyyətdən də sui-istifadə edərək Azərbaycana qarşı təxribatlarını davam etdirir.

# Azərbaycanın və Türkiyənin Xarici İşlər nazirləri arasında telefon danışığı olub

Oktyabrın 10-da Azərbaycan Respublikası Xarici İşlər naziri Ceyhun Bayramov ilə Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramov Moskva şəhərində Rusiya Xarici İşlər nazirinin vasitəçiliyi ilə keçirilən Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü barədə türkiyəli həmkarını məlumatlandırıb.

Nazir Azərbaycan ilə Ermənistan arasında humanitar məqsədlərlə müvəqqəti atəşkəsin elan olunduğunu, mahiyyət etibarilə danışıqların aparılması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair işğalçı ölkəyə sonuncu şansın verildiyini qeyd edib.

Mövlud Çavuşoğlu Türkiyənin əsirlərin və cəsədlərin dəyişdirilməsi üçün elan edilən atəşkəsin önəmli addım olmaqla yanaşı, davamlı həll yolu olmadığını və Türkiyənin yalnız Azərbaycanın qəbul edəcəyi həll yolunu dəstəkləyəcəyini vurğulayıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın prinsipial mövqeyinə istinad edərək bölgədə sülhün təmin olunması üçün BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsinin zəruriliyini bildirib.

# Ermənistanın sülhə məcbur edilməsi istiqamətində həyata keçirilən əməliyyatın birinci mərhələsi uğurla başa çatdı

"Ermənistanın təxribatına və mülki Azərbaycan əhalisini hədəfə almasına cavab olaraq keçirilən əks-həmlə əməliyyatı nəticəsində 10 günlük müddət ərzində Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vuruldu". AZƏRTAC xəbər verir ki, bu fikri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Son bir il ərzində baş verən proseslər onu göstərirdi ki, Ermənistan azğınlaşmış və Azərbaycan ərazilərinin işğalını artıq bitmiş iş hesab edirdi. Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması da buna hesablanmışdı. İşğala əsaslanan status-kvo qalmaqda davam edirdi. Ermənistan bütün imkanlardan istifadə edib ərazilərin ilhaqını həyata keçirirdi. Ermənilərin heç zaman yaşamadığı Cəbrayıl rayonunda məskunlaşma aparılırdı.

2016-cı ilin Aprel döyüşlərində aldığı zərbəyə baxmayaraq, Ermənistanın siyasi-hərbi rəhbərliyi hələ də özünü qalib tərəf kimi göstərməyə çalışırdı.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə hərbi-strateji baxımdan Ermənistanın bu illüziyaları darmadağın edildi. On günlük hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələrinin əsas idarəetmə mərkəzləri, hərbi infrastrukturu, silah-sursat və maddi-texniki təchizat bazası, döyüş texnikası, bahalı radio-elektron və hava hücumundan müdafiə sistemləri və döyüşkən hərbi birləşmələri məhv edildi. Otuz illik dövr ərzində Ermənistan tərəfindən milyardlarla vəsait sərf olunaraq bu hərbi infrastruktur sistemi qurulmuşdu. Coğrafi baxımdan qismən kiçik bir ərazidə Ermənistan tərəfindən böyük həcmdə silah-sursat və hərbi texnika cəmləşdirilmişdi. Şərti olaraq desək, hər bir kvadratmetr ərazi atəş zərbəsi altındadır. Çoxlu sayda təbii maneələr vardır. Ermənistan bu torpaqları həmin dövrün reallığında 7-8 ilə işğal etmişdi. Qısa müddətdə Ermənistanın bu döyüş texnikasının böyük əksəriyyəti məhv edildi. Hərbi əməliyyatların gedişi Ermənistanın iqtisadiyyatına çox ciddi zərbədir. Uzunmüddətli dövr ərzində Ermənistanın siyasi-diplomatik, hərbi və iqtisadi baxımdan müqavimət əzmi sındırılır.

Hərbi baxımdan status-kvo dəyişdirildi. Artıq təmas xətti anlayışı yoxdur. Ermənistan təmas xəttini dövlət sərhədinə çevirməyə çalışırdı. Ermənistanın sülhə məcbur edilməsi istiqamətində həyata keçirilən əməliyyatın birinci mərhələsi uğurla başa çatdı. Cəbrayıl rayonu, çox böyük əhəmiyyətə malik olan Suqovuşan kəndi işğaldan azad edildi. Dağlıq Qarabağın inzibati ərazi vahidinə daxil olan Hadrut qəsəbəsi və ətraf kəndlər işğaldan azad edildi. Bütün bunlar həm də Ermənistana böyük psixoloji zərbədir".

Hikmət Hacıyev qeyd edib ki, münaqişələr yalnız hərbi yolla deyil, eyni zamanda siyasi-diplomatik vasitələrlə həll edilir. Ermənistan-Azərbaycanın münaqişəsinin Azərbaycanın maraqları əsasında həll edilməsi üçün hərbi-siyasi və diplomatik fəaliyyət səmərəli və düşünülmüş şəkildə aparılmalıdır.

Siyasi baxımdan Ermənistanın danışıqlar prosesində şərtləri diktə etməsi və işğalın nəticələrini siyasi vasitələrlə möhkəmləndirmək cəhdlərinin qarşısı alındı. Ermənistanın danışıqlar prosesinin formatını dəyişdirmək cəhdləri iflasa uğradı. Ermənistan baş naziri Azərbaycana şərt qoyurdu ki, qondarma rejim danışıqlar prosesində iştirak etməlidir.

Ermənistan xarici işlər naziri Azərbaycan xarici işlər naziri ilə birlikdə Moskvada danışıqlarda iştirak etməsi və humanitar atəşkəs barədə bəyanatı qəbul etməsi Ermənistanın münaqişə tərəfi kimi rolunun bir daha təsbit olunmasıdır. 1994-cü ilin atəşkəs haqqında sənədini Ermənistan həmişə öz bildiyi kimi təhrif edirdi.

Moskvada qəbul edilmiş bəyanatla humanitar əsaslarla müvəqqəti atəşkəs elan olunmuşdur. Hərbi əməliyyatların gedişində humanitar atəşkəsin elan olunması təcrübəsi vardır. Bu müddət ərzində döyüş meydanında həlak olan hərbi qulluqçuların cənazələri götürülür, yaralılara yardım göstərilir.

Atəşkəs, xüsusilə də humanitar atəşkəs sülh deyil və ola da bilməz. Humanitar atəşkəsin elan olunmasının ardınca dərhal mahiyyətli danışıqlar başlanmalıdır.

Humanitar əsaslarla atəşkəsin elan edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən cəbhənin müxtəlif istiqamətləri boyunca atəşkəsin pozulması davam edir. Əgər Ermənistan işğaldan azad edilmiş ərazilərin yenidən işğal edilməsinə cəhd edərsə, yenə də öz layiqli cavabını alacaqdır.

Humanitar atəşkəsin ardınca dərhal mahiyyətli və nəticəli danışıqlar aparılmalıdır. Danışıqlar prosesinin yol xəritəsi hər kəsə məlumdur. Azərbaycan buna hazırdır. BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsinin mandatından çıxış edərək Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin olunmalıdır. Yaranmış vəziyyəti münaqişənin köklü həllinə və regionda davamlı sülhün təmin olunmasına doğru istiqamətləndirmək lazımdır.

Baş verənlər bir daha onu göstərir ki, vəziyyətin hər zaman gərginləşməsi baş verə bilər. Bütün resurslar işğal faktının və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına hədəflənməlidir. Bundan sonra regionda davamlı sülh təmin oluna bilər.

# İtaliyanın aparıcı KİV-i Prezidentin köməkçisi Hikmət Hacıyevin müsahibəsini yayıb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İtaliyanın nüfuzlu "Askanews" xəbər agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibə ayrıca olaraq istər video, istərsə də yazılı şəkildə "Askanews" agentliyinin internet səhifəsində yerləşdirilib. Həmin müsahibə İtaliyanın "Il Sole 24 Ore", "Affari Italiani", "Il Tempo", "Libero Quotidiano", "Quotidiano", "Giornale d'Italia", "MSN", "Notizie Tiscali", "Today.it", "Notizie Yahoo", "Finanze Yahoo", "Timgate" və digər çoxsaylı kütləvi informasiya vasitələri tərəfindən də yayılıb.

Hikmət Hacıyev "İtaliya Dağlıq Qarabağ münaqişəsinin həlli üçün aparılan danışıqlarda vacib rola malik ola bilər", - deyə bildirib. Atəşkəslə bağlı beynəlxalq çağırışların çoxaldığı və beynəlxalq ictimaiyyətin Moskvada Azərbaycan və Ermənistan arasında keçirilən ilk görüşün qısa zamanda atəşkəsə nail olunacağına ümid edildiyi ərəfədə Prezidentin köməkçisi Şuşada kilsənin və mülki əhalinin bombalanması ittihamlarını rədd edib. O, müsahibəsində toqquşmaların dayandırılması üçün Azərbaycanın şərtlərini bir daha diqqətə çatdırıb.

Münaqişənin həlli üçün Ermənistandan öz işğalçı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını və qoşunların çıxarılması ilə bağlı cədvəlin təqdim edilməsini gözlədiklərini qeyd edən Hikmət Hacıyev münaqişədə məsuliyyəti Ermənistanın daşıdığını bildirib. Şuşada kilsənin bombalanması ilə bağlı ittihamlara gəldikdə, Prezidentin köməkçisi bunun bir erməni təbliğatı olduğunu deyib. "Azərbaycan xristian icması olan multikultural ölkədir və biz öz xristian irsimizlə fəxr edirik. Azərbaycan Ordusu dini binaları, kilsələri və digər dini təsisatları hədəfə almır", - deyə o vurğulayıb.

Hikmət Hacıyev qeyd edib ki, baş verənlərlə bağlı Ermənistan çoxlu ziddiyyətli məlumatlar təqdim edib. Hər şeydən öncə, onlar deyirlər ki, bu, raket hücumudur. Kilsənin tavanı dağılıb. Lakin kilsənin daxilindəki ikonalara zərər dəyməyib. Əgər bu raket zərbəsi olsaydı kilsənin daxilinə də zərər yetirərdi. Nəticədə, Ermənistan baş verənlərdən Azərbaycana qarşı təbliğat kimi istifadə edərək bütün dünya xristianlarını qəzəbləndirməyə səy göstərir. Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra işğal edilmiş ərazilərdə bütün kilsələr və dini binalar bərpa ediləcək. Biz münaqişədə dinin istifadə edilməsinə qarşıyıq və baş verənlərlə bağlı bir daha bütün dünya xristianlarına təəssüfümüzü ifadə edir, lakin bunun nə Azərbaycan xalqının, nə də Azərbaycan dövlətinin günahı olmadığını bildiririk.




Prezidentin köməkçisi münaqişənin həllinə münasibətdə beynəlxalq ictimaiyyətin, Rusiya və Türkiyənin, eləcə də xüsusi olaraq Cənubi Tirol modeli tətbiq edilmiş İtaliyanın roluna toxunub. O deyib ki, Türkiyə və Rusiya hər ikisi bizim qonşularımızdır və hər ikisi vəziyyətin gərginləşməsinə görə narahatdır. Bu ölkələri Avrasiya qitəsində vacib aktorlar hesab edirik. Onlar münaqişənin tam və qlobal həllinə töhfə vermək iqtidarındadırlar ki, bu da Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılması və Ermənistanın işğalına avtomatik son qoyulması anlamına gəlir.

Hikmət Hacıyev deyib ki, sentyabrın 27-də hərbi əməliyyatların başlanmasından sonra ilk dəfə Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşürlər. Beynəlxalq ictimaiyyət ən qısa zamanda atəşkəsin elan edilməsinə və 30 ilə yaxındır Qafqaz regionunu qeyri-sabit vəziyyətə salan münaqişə üzrə sülh prosesinin başlanmasına ümid edir. "İnanırıq ki, İtaliya Minsk qrupunun üzvü kimi çox vacib rola malik ola bilər. Minsk qrupunun ilk sədri italiyalı Mario Raffaelli olub. O, çox yaxşı institusional yaddaş saxlayıb. Onunla gələcək format barədə müzakirələr etmişik. Bizim üçün İtaliya modeli, Cənub Tirol çoxmədəniyyətli və linqvistik modeli ən yaxşı modeldir. Düşünürük ki, bu model Ermənistan və Azərbaycan münaqişəsinə də tətbiq edilə bilər. Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra ermənilər və azərbaycanlılar sülh şəraitində Azərbaycan sərhədləri çərçivəsində muxtariyyət altında birgə yaşaya bilərlər. İtaliya, eyni zamanda Avropa İttifaqının məsuliyyətli üzvüdür və Azərbaycanın strateji tərəfdaşıdır. Gözləntimiz İtaliyanın daha vacib rolu həyata keçirməyə davam etməsidir", - deyə Prezidentin köməkçisi fikirlərini yekunlaşdırıb.

# *Ceyhun BAYRAMOV:* "Humanitar atəşkəsə baxmayaraq, Ermənistan hücum əməliyyatları keçirməyə cəhd edib və geri oturdulub"



"On gün ərzində aparılan əməliyyatlar zamanı hərbçilər və mülki şəxslər həlak olub. Eyni zamanda əsir götürülmüş hərbçilər var. Beynəlxalq təşkilatlardan, bir sıra dövlətlərdən çoxsaylı çağırışlar edilirdi ki, humanitar atəşkəs elan olunsun. Rusiya Prezidentinin təşəbbüsü əsasında Moskvada Xarici İşlər nazirlərinin görüşündə əsas məqsəd humanitar atəşkəsin təmin olunması idi. Ancaq buna baxmayaraq, ermənilər təxribatları davam etdirirlər".

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 10-da keçirilən mətbuat konfransında Xarici İşlər naziri Ceyhun Bayramov söyləyib.

C.Bayramov qeyd edib ki, ötən günlər ərzində Rusiya Prezidenti Vladimir Putin xüsusi təşəbbüslə çıxış edib, Azərbaycan Prezidenti və Ermənistan baş naziri ilə razılıq əldə olunub. Oktyabrın 9-da Moskvada bununla bağlı müvafiq sənəd imzalandı. Sənəddə həlak olmuş hərbçilərin cəsədlərinin çıxarılması, hərbçilərin və saxlanılmış digər şəxslərin mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulur. Bu, mürəkkəb, spesifik əməliyyatdır və bu işlərlə bağlı koordinasiya Beynəlxalq Qırmızı Xaç Komitəsinə həvalə edilib. Hələ ki, bu əməliyyatların başlanmasına şərait yaradılmayıb. Çünki Ermənistan növbəti dəfə təxribatçı üzünü göstərdi. Bu gün saat 12-dən atəşkəs təmin edilməli idi, ancaq Ermənistan hücum əməliyyatları keçirməyə cəhd edib və geri oturdulub.

Moskvada qəbul olunmuş bəyanatda Azərbaycanın üstünlüyünün aydın göründüyünü deyən nazir Ceyhun Bayramov bildirib: "Həmin bəyanatda Ermənistan danışıqlar prosesinin dəyişməz olduğunu qəbul etdi. Ermənistan iddia edirdi ki, qondarma rejim danışıqlar prosesinə cəlb olunsun. Ancaq qəbul olunan bəyanatda Ermənistan danışıqlar prosesinin dəyişməz qaldığını qəbul etməyə məcbur oldu".

* * *

"Ermənistan ciddi şəkildə öz öhdəliklərini yerinə yetirməli, danışıqlar prosesinə tam ciddiyyəti ilə qayıtmalı və bununla bağlı real addımlar atılmalıdır".

Nazir bildirib: "Hesab edirəm ki, Ermənistan tərəfindən imitasiya prosesi həyata keçirilərsə, ciddi addımlar atılmazsa, hərbi əməliyyatların bərpa edilməsi riski hər zaman mövcuddur. Hazırda Ermənistan Moskvada imzalanan sənədin tələblərinə məhəl qoymur və müvəqqəti atəşkəsin elan olunmasına baxmayaraq, hərbi əməliyyatlar davam edir".

Fransanın münaqişə ilə bağlı mövqeyinə münasibət bildirən nazir vurğulayıb: "Azərbaycan tərəfi Fransanın birtərəfli, qərəzli şəkildə Ermənistanı dəstəkləməsinə öz mövqeyini bildirib. Bu kimi hallara mövqeyimizi bildirməli, dialoqdan qaçmamalıyıq. Ədalətli sözü çatdırmaq nə qədər çətin olsa da, buna nail olmaq mümkündür".

Rusiyanın mövqeyinə gəlincə, Xarici İşlər naziri qeyd edib ki, Rusiya Azərbaycana qonşu ölkədir. "Rusiya ilə strateji münasibətlərimiz var. Son 10 gün ərzində Rusiya tərəfindən Azərbaycan və Ermənistana balanslaşdırılmış münasibətin şahidi olduq, neytral mövqe qorunub saxlanıldı. Rusiya münaqişənin qısa müddətdə dayandırılması çağırışları edir və biz bunu normal qarşılayırıq", - deyə o bildirib.

* * *

"Uzun illər ərzində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların imitasiyası həyata keçirilib. Növbəti mərhələdə danışıqların imitasiyasına imkan verilməyəcək".

Ermənistan tərəfində terrorçuların iştirakı barədə materialların toplanaraq müxtəlif dövlətlərin səfirliklərinə, aidiyyəti beynəlxalq təşkilatlara təqdim olunduğunu bildirən nazir qeyd edib: "Biz beynəlxalq təşkilatlara təqdim etdiyimiz materiallarda beynəlxalq konvensiyaların hansı müddəalarının pozulduğunu göstərmişik. PKK terrorçularının da döyüşlərdə iştirak etməsi ilə bağlı sübutlar var. Ermənistan prezidenti də terrorçuların döyüşlərdə iştirakını etiraf edib. Terrorçulardan istifadə etmək Ermənistanın həmişəki əməlidir".

Ceyhun Bayramov, eyni zamanda bildirib ki, Ermənistan atəşkəs rejiminə əməl etməsə, bunun acı nəticələrini görəcək. "Ermənistan rəhbərliyi öz əhalisini aldadır, xalqa olmayan hansısa uğurlar haqqında yalan məlumatlar verirlər. Bununla da daxili auditoriyaya müsbət mesaj vermək istəyirlər. Bu, onların ağır durumda olduğunu təsdiq edir", - deyə Xarici İşlər naziri qeyd edib.

* * *

"Döyüş meydanında əldə etdiyimiz qələbələr bizə siyasi-diplomatik müstəvidə üstünlüklər verməkdədir. Moskvada imzalanan sənəddə Ermənistan humanitar atəşkəsə məcbur edilib. Eyni zamanda münaqişənin baza prinsipləri də sənəddə əksini tapıb".

Ermənistanın çox qısa müddətdə baza prinsipləri əsasında substansiv danışıqların aparılması öhdəliyini üzərinə götürdüyünü bildirən nazir deyib: "Ermənistan bundan əvvəl həmin prinsipləri rədd etmişdi. Son günlər döyüş meydanında qazandığımız uğurlar imkan verdi ki, Ermənistan bu şərti qəbul etsin. Həmçinin Ermənistan danışıqlar zamanı özlərinin təhlükəsizliyini təmin etmək üçün şərtlər qoyurdu. Lakin biz bunu qəbul etmədik və bildirdik ki, bu məsələlər Ermənistan qoşunları Azərbaycan ərazilərindən çıxandan sonra həll edilə bilər".

* * *

"Oktyabrın 9-da dünyada BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatı Nazirlər Konfransının bəyanatı qəbul edilib. Bəyanatda Ermənistanın təxribatı qınanılıb, üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyü dəstəklənib. Bu, işğalçıya bir mesajdır".

C.Bayramov bildirib ki, Moskva görüşündən əvvəl onun Cenevrədə Minsk qrupunun həmsədrləri ilə görüşü olub. Nazir deyib ki, status-kvo dəyişməli idi, amma bunun üçün Ermənistana təzyiqlər edilmirdi. Həmsədrlərlə danışıqlarda aydın oldu ki, onlar da bunu başa düşürlər. Bu, Ermənistan üçün də zəruridir. Münaqişə həllini tapmadıqca Ermənistanın inkişaf perspektivləri yoxdur. On gün ərzində həyata keçirilən əməliyyatlar bir sıra istiqamətlərdə prosesin sürətlə irəli aparılması üçün zəmin yaradır".

Qarşıda böyük məqsəd və hədəflərin olduğunu deyən nazir bildirib: "Buna nail olmaq üçün bütün imkanlarımızdan istifadə edərək sistemli şəkildə addımlar atmalıyıq".

Humanitar atəşkəsin müddətinə toxunan C.Bayramov diqqətə çatdırıb ki, burada hər hansı bir müddət yoxdur. Əsas proses Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən həyata keçiriləcək. Cəsədlərin götürülməsinin və girovların dəyişdirilməsinin nə qədər vaxt aparacağını həmin təşkilat deyə bilər.

# ÜÇ CƏBHƏNİN SƏRKƏRDƏSİ

## İLHAM ƏLİYEV kimi övladınla fəxr et, Vətən!



*Əvvəli 1-ci səh.*

Bu səmimiyyət həm də xalqda yaranan inamın, ruh yüksəkliyinin daha da artmasına, xalq-rəhbər birliyinin keyfiyyətcə yeni, ən yüksək zirvəyə qalxmasına təkan verdi!

*İlham Əliyev adi sözlər söyləmirdi, Azərbaycanın maraqlarını ifadə edirdi!*

*İlham Əliyev adi sözlər söyləmirdi, bizim hər birimizin ürəyindən keçənləri dilə gətirirdi!*

*İlham Əliyev adi sözlər söyləmirdi, dostlara məhəbbətini çatdıraraq, düşmənə qəzəb və nifrətini püskürürdü!*

**Bu həm də ona görə adi sözlər deyildi ki, deyilənlər rəşadətli Azərbaycan Ordusu tərəfindən döyüş meydanlarında uğurla həyata keçirilirdi!**

**Bu ordunu da İlham Əliyev yaratmışdır!**

**Bu ordunu da İlham Əliyev ən müasir silahlarla silahlandırmışdır!**

**Bu ordunu da ən yeni müasir taktika əsasında döyüşmək üçün təlimləndirərək düşmən üzərinə göndərmişdir!**

*İndi Ali Baş Komandanımız uzun illər boyu böyük vəsait və zəhmət bahasına yaratdığı ordusu ilə qürur duyur!*

*İndi Ali Baş Komandanımız yetişdirdiyi qəhrəman əsgər və zabitlərinin dalbadal qazandıqları şanlı qələbələrdən haqlı iftixar hissi keçirir!*

Bu qələbələri şəxsən özü elan edir, Azərbaycan xalqına çatdırır!

**Çünki bu qələbə həm şanlı sərkərdəmizin, həm də hər birimizin qələbəsidir!**

**Bu zəfər xəbərini qalib Ali Baş Komandanımızın dilindən eşitməyimiz onu daha da şirinləşdirir, daha çoşqun və əzəmətli edir.**

**İlham Əliyev bu zəfərlərlə Azərbaycan tarixinin ən qüdrətli sərkərdəsi olduğunu da sübut edir!**

❖ ❖ ❖

Hərbi əməliyyatlar başlayan dövrə qədər artıq İlham Əliyev özünü mahir diplomat kimi tanıdaraq sübut etmişdi:

- transmilli layihələrin reallaşdırılması üçün müxtəlif dövlət başçıları ilə keçirdiyi görüşlərdə;

Habelə:

- BMT - Təhlükəsizlik Şurasına;
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına;
- Qoşulmama Hərəkatına rəhbərlik etdiyi dövrlərdə həm dünyanı düşündürən və narahat edən məsələləri gündəmə gətirmiş, onların həlli üçün doğru yollar göstərmiş, həm də Azərbaycanın maraqlarını təmin etmişdir.

**Bu gün də biz Prezidentimizin diplomatik məharətinin şahidinə çevrilirik!**

Qüdrətli ordu, güclü dövlət yaradan İlham Əliyev müharibənin xalqımızın qələbəsi, işğal altındakı torpaqların azad edilməsi ilə başa çatacağına əmindir və hər gün bizi möhtəşəm qələbəyə yaxınlaşdırır.

*Bizim vüqarlı və qürurlu Prezidentimiz heç kimə, heç haraya zəng etmir, hərbi əməliyyatların dayandırılması üçün kimsəyə yalvararaq qarşısında diz çökmür!*

*Bu onun təbiətinə və kişiliyinə uyğun deyil!*

*Əksinə, bu gün İlham Əliyevə zənglər gəlir, ondan xahişlər edilir!*

Prezidentimiz hər kəsə hörmətlə yanaşaraq müharibəyə Ermənistanın bais olduğunu, "Qarabağ Ermənistandır" deməklə sülh danışıqlarını Paşinyanın pozduğunu sübut edir, Azərbaycanın haqlı olduğunu, beynəlxalq hüquqa söykəndiyini göstərir, ən nəhayət, daha 30 il gözləməyin mümkünsüzlüyünü və hərbi əməliyyatlara da təxribatçı Ermənistanın başladığını bildirir.

**Onun məntiqli, səlis, aydın nitqi, məsələyə tarixi, hüquqi, ədalət və insan haqları nöqteyi-nəzərindən yanaşması xahiş sahiblərinin gecikdiklərini də ortaya qoyur.**

Hərdən əsassız təkid edənlərə, erməniləri açıq-aşkar, göz-görəti müdafiə edənlərə isə yerlərini göstərir, Dağlıq Qarabağa harada müstəqillik verilməyin konkret ünvanlarını da söyləyir!

İlham Əliyevlə mübahisədə ona üstün gələ bilməyəcəklərini duyan qərəzli opponentləri "Bizim məktəbin yetirməsidir" deyərək Prezidentimizin böyük diplomatik bacarığını etiraf etmək məcburiyyətində qalırlar.

❖ ❖ ❖

Müasir müharibələrə hibrid müharibəsi də deyilir.

Çünki müharibələr artıq təkcə döyüş meydanında yox, digər müstəvilərdə də aparılır.

*Belə vacib meydanlardan biri informasiya müharibəsidir.*

**Ali Baş Komandan İlham Əliyev irəlicədən bu cəbhəni də nəzərə almış, onun əhəmiyyətini layiqincə qiymətləndirərək öz tədbirini görmüşdür.**

Xislətləri yalanla, şər və böhtanla yoğrulan ermənilər informasiya müharibəsində həmişə fəal olmuş, diasporları vasitəsilə dünya mediasında üstünlüyü ələ keçirmiş, çox halda yalanlarına "həqiqət donu" geyindirə bilmişlər.

Birinci Qarabağ müharibəsi dövründə və sonrakı proseslərdə bunun dönə-dönə şahidi olmuşuq!

**İndi isə erməni yalanı hərdən ayaq tutsa da, yerimir, Prezidentimiz dərhal onun qıçlarını sındırır!**

Həm də təkzibolunmaz faktlar əsasında!

Bir neçə misal.

Paşinyan "şəxsən" bəyan etmişdi ki, Azərbaycanın F-16 təyyarəsi Ermənistanın iki Su-25 təyyarəsini vurub.

Cənab İlham Əliyev çox soyuqqanlı şəkildə bunun ağ yalan olduğunu göstərdi: Əvvəla,

Azərbaycanın heç F-16 təyyarəsi yoxdur, ikincisi, indi dünya elə güclü müşahidə sistemlərinə malikdir ki, istənilən yerdən havaya qalxan təyyarə qeydə alınır, üçüncüsü isə, Ermənistanın Su-25-ləri təyyarəçilərin naşılığı üzündən dağa çırpılaraq partlayıb.

Başqa sübutunuz varsa, təqdim edin!

Ermənistanın Azərbaycan tərəfindən muzdluların döyüşməsi ilə bağlı iddiasına da eyni soyuqqanlılıqla cavabını verdi: "Sübutunuzu göstərin!"

**İlham Əliyev özü düşməni ittiham edəndə isə konkret sübut və faktları sadalayır.**

Mülki obyektlərə hücum və evlərin dağıdılması, dinc əhalinin hədəf seçilərək öldürülməsi və yaralanması, erməni tərəfindən Suriyadan gəlmiş muzdluların döyüşməsi foto, video çəkilişləri və sosial şəbəkədəki materiallarla isbata yetirilir.

**Müharibə dövründə beynəlxalq informasiya məkanında ən böyük fəallığı da cənab İlham Əliyev göstərir.**

Onun qısa zamanda dünyanın ən məşhur və çoxmilyonlu tamaşaçı auditoriyası olan televiziya kanallarına verdiyi müsahibələri xatırlatmaq kifayətdir:

"Rossiya-1" telekanalının "60 dəqiqə" proqramı;

"Əl-Cəzirə" televiziya kanalı;

"Əl-Ərəbiyə" televiziya kanalı;

"TRT Haber" televiziya kanalı;

"Pervıy kanal" televiziyası;

"CNN-Türk" televiziyası;

"Euronews" televiziyası;

Kanalların əksəriyyəti (başqa sözlə, Türk kanalları istisna olmaqla) mövzuya birtərəfli qaydada yanaşır, erməni yalanlarını və öz qərəzli mövqelərini isbata yetirməyə çalışırdılar!

Amma canfəşanlıqları heç bir nəticə vermədi.

*İlham Əliyev soyuqqanlı və məntiqli mühakiməsi, təmkinli davranışı ilə indiyədək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş mühüm sənədlərə istinadən Azərbaycanın haqlı olduğunu, münaqişənin Paşinyanın sülhdən daim yayınmaq və işğal etdikləri torpaqları azad etməmək niyyətindən yarandığını, Azərbaycanın bu münaqişədə haqlı tərəf olduğunu və hərbi əməliyyatların məhz Azərbaycan ərazisində getdiyini əsas gətirərək bütün qərəzli və məkrli hücumları asanlıqla rədd edirdi.*

*Çox halda verilən suallarda istinad olunan faktların yalan, böhtan olduğunu da ortaya qoyurdu!*

**Azərbaycana qarşı qərəzli olan belə telekanalların canfəşanlığını puça çıxaran İlham Əliyev əksinə, həmin kanalların verdiyi tribunadan bacarıqla istifadə edərək Ermənistanın işğalçılıq əməllərini, faşist xislətlərini və yalanlarını bütün dünyaya çatdırdı!**

*Biz hamımız bu müharibədən qələbə gözləyirik!*

*Biz hamımız bu müharibədə Ali Baş Komandan İlham Əliyevə güvənir və əminik ki, həsrətlə gözlədiyimiz qələbəyə bizi məhz böyük rəhbərimiz çatdıracaq!*

*Biz hamımız İlham Əliyevi indi daha böyük coşqu və məhəbbətlə sevir və bir xalq olaraq ətrafında yumruq kimi birləşmişik!*

**İlham Əliyev bu günlərdə dayanmadan, durmadan, istirahət etmədən üç cəbhənin hamısında böyük əzm və uğurla çalışır, əsl sərkərdə, müdrik rəhbər, uzaqgörən dövlət başçısı kimi xalqın etimad və etibarını ən yüksək səviyyədə doğruldur!**

**Yaşa Ali Baş Komandanımız!**

**Tarix bu xidmətlərinizi heç zaman unutmayacaq!**

**QƏLƏBƏ BİZİMLƏDİR!**

**QARABAĞ BİZİMDİR!**

***Bəxtiyar SADIQOV***

# İlham Əliyev Ermənistana axırıncı şansı verdi

## Döyüş meydanında qalib olan Azərbaycan danışıqlarda da öz şərtlərini diktə edəcək

*Əvvəli 1-ci səh.*

Ona görə Azərbaycan bu görüşdə həm üstün, həm də dəyişməz və prinsipial şərtlərini irəli sürən tərəf kimi iştirak edirdi.

Qeyd edək ki, sentyabrın 27-dən başlanan əks-hücum əməliyyatları Azərbaycana qarşı artan siyasi-diplomatik təzyiqlər şəraitində həyata keçirildi. Lakin Prezident İlham Əliyev bu siyasi təzyiqlərə layiqincə sinə gərdi, məharətli və vaxtında atılan diplomatik addımlarla ölkəmizə qarşı olan bütün təzyiqləri uğurla neytrallaşdırdı. Bütün bunların nəticəsi olaraq Ermənistan və onun havadarlarının bir araya gələrək Azərbaycana qarşı vahid diplomatik cəbhə formalaşdırılmasının qarşısı alındı.

Artıq təmas xətti deyilən anlayış da yoxdur və Azərbaycan status-kvonu dəyişib. Azərbaycanın üstün mövqeyi şəraitində keçirilən Moskva görüşündə razılaşdırılmış məsələlərdən birincisi isə humanitar atəşkəsdir. Yəni döyüşlərin birdəfəlik dayandırılmasından söhbət getmir. Bu atəşkəs tamamilə müvəqqəti xarakter daşıyır. Əgər bundan sonra Ermənistan razılaşmaya zidd olaraq yenə də öz siyasətini davam etdirəcəksə və işğal olunmuş ərazilərdən öz qoşunlarını çıxarmayacaqsa, onda hərbi əməliyyatların bərpa olunması hər zaman baş verə bilər. Çünki Azərbaycan öz uğurlu hərbi əməliyyatları ilə "münaqişənin hərbi həlli yoxdur" tezisini artıq darmadağın edib. Ona görə mahiyyətli danışıqlar aparılmalı və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını nəzərdə tutan plan hazırlanmalıdır.

Bu, birinci mərhələdir. Məqsəd Azərbaycanın hərbi müstəvidə əldə edilmiş nailiyyətlərinin diplomatiya və siyasi müstəviyə daşınmasıdır. Əgər Ermənistan bundan sonra da danışıqlar prosesində nəzərdə tutulan prinsiplərin əleyhinə gedəcəksə, Azərbaycan hərbi əməliyyatları dərhal bərpa edəcək. Bunu Ermənistan da, onun havadarları da yaxşı anlayırlar.

### Son nəticə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir

Prezident İlham Əliyevin müraciətində dediyi kimi, bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır: "Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər - onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Qənimət kimi götürülmüş o hərbi texnikadan indi biz istifadə edirik - 18 tank. Onların tankları indi döyüş meydanında onlara qarşı vuruşur. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz".

Bəli, Azərbaycan əsgəri hər gün hansısa bir kəndi azad etdi, hər gün düşməni bir qədər də geri oturtdu. Cəmi bir neçə günə Azərbaycan Ordusu işğalçının 16 komanda məntəqəsini, 200-dən artıq tankını, 40-dan artıq BM-21, 1 "Uraqan", 13 özüyeriyən artilleriya qurğusunu, 36 PDM-i, 24 artilleriya batareyasını, 2 "S-300" kompleksinin buraxıcı qurğusunu, 25 OSA zenit-raket kompleksini, 2 KUB zenit-raket kompleksini, 4 "Repelend" radio-texniki maneə vasitəsini, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatını, 4 radiolakasiya stansiyasını və daha neçə-neçə hərbi texnikasını məhv edib. Cəmi bir neçə günə Ermənistan döyüş aparmaq imkanlarından məhrum edilib. Bundan sonra Ermənistana onilliklər lazım olacaq ki, özünə yeni ordu qursun. Bu silah-sursat sistemlərinin qurulması üçün Ermənistan tərəfindən milyardlarla vəsait sərf olunmuşdu. Düşmənin ordusunun peşəkar zabit heyəti və peşəkar müddətdən artıq hərbi xidmətçiləri böyük sayda məhv edildi. Bu kimi peşəkar hərbçi heyətinin formalaşdırılmasına illər lazımdır. Ümumiyyətlə isə, son döyüşlər miqyasına görə böyük əməliyyat olaraq Ermənistan ordusunun və cəmiyyətinin özünə güvənini əsaslı dərəcədə sarsıtdı.

Ona görə nəzarətində olduğu KİV vasitəsilə nə qədər dezinformasiya yaysa da, Paşinyan əsl həqiqətləri etiraf etməyə məhkumdur. Acizanə şəkildə yalvarışları da bu etirafın təsdiqidi. Moskva razılaşması isə əslində Ermənistanın diplomatik kapitulyasiyasının başlanğıcıdır. Danışıqlar davam edəcəyi təqdirdə təşəbbüs Azərbaycanın tərəfindədir. Bundan sonra bütün şərtləri Azərbaycan diktə edəcək və son nəticə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi olacaq. Prezident İlham Əliyevin dediyi kimi, "Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Beləliklə, Azərbaycan azğınlaşan və həyasızlaşan Ermənistan rəhbərliyinin ölkəmizə şərt qoymaq, danışıqlar prosesinin formatını dəyişmək kimi iddialarını bir neçə günə darmadağın etdi. İşğala əsaslanan status-kvonu dəyişdirən Prezident İlham Əliyev Ermənistana həm də sonuncu şansı verdi. Ermənistan rəhbərliyinin özü də İlham Əliyevin prinsipiallığının və qəti əzmininin şahidi oldu. Həm də anladı ki, istənilən halda Azərbaycan torpaqlarını azad edəcək. Ona görə bundan sonrakı proseslər Ermənistan rəhbərliyinin davranışlarından asılıdır. Əgər İlham Əliyevin verdiyi şansı düzgün dəyərləndirməsə, Azərbaycan Ermənistana tarixinin ən böyük fəlakətini yaşadacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Danışıqların gündəliyini və məzmununu Azərbaycan müəyyən edəcək

*Əvvəli 1-ci səh.*

Düşmənin illərdir işğal edilmiş torpaqlarımızda möhkəmlənərək yaratdığı və güvəndiyi "keçilməz erməni səddi" Azərbaycan əsgəri tərəfindən darmadağın edildi. Erməni əsgəri silahını, hərbi texnikasını və döyüş bayrağını ataraq qaçdı. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi.

Beləliklə, tarixi günlərini yaşayan Azərbaycan düşməni torpaqlarımızdan çıxararaq Ermənistanı təslim bayrağı qaldırmağa məcbur etdi. Cəbrayıl rayonu, Hadrut qəsəbəsi, Murovdağ zirvəsi, Suqovuşan su anbarı, onlarca kənd, strateji yüksəkliklər azad edildi. İndi həmin ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Bütün cəbhə xətti boyu ermənilərin müdafiə istehkamları yarıldı və ələ keçirildi, bundan sonra düşmənin yenidən müdafiə xətti qurmağa nə vaxtı, nə imkanları, nə resursları yoxdur. Suqovuşan su anbarının olduğu ərazinin azad edilməsi ilə ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən su probleminin həlli istiqamətində də ciddi addım atıldı.

### Ermənistan başından növbəti zərbəni aldı

Çıxılmaz duruma düşən Paşinyan cənab İlham Əliyevin dediyi kimi, o dünya lideri qalmadı ki, Azərbaycana təzyiq göstərilməsi ilə bağlı yalvarış etməsin. Ancaq Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyev öz prinsipiallığını bir daha nümayiş etdirdi. Bəzi dünya liderləri isə savaşın Azərbaycan torpaqlarında getdiyini bildirərək Paşinyana cavab vermədilər və Qarabağda gedən savaş, Azərbaycan Ordusunun əldə etdiyi zəfərlər diplomatiya meydanında da uğurlara çevrildi. Bununla da işğalçıya bəlli oldu ki, artıq danışıqların şərtlərini İlham Əliyev müəyyən edir.

Oktyabrın 9-da isə Azərbaycan Prezidenti Ermənistana sonuncu şans verdi. Prezident bəyan etdi ki, artıq status-kvo deyilən məsələ və təmas xətti yoxdur: "İşğalçıya bəlkə də sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın. Yoxsa Ermənistanın baş naziri özünü nə hesab edir? Bizimlə bu tərzdə danışmaqmı olar? İndi biz ona yerini göstərdik. "Qarabağ Ermənistandır" deməklə Qarabağ heç vaxt Ermənistan olmayacaq. İndi görüm necə deyir "Qarabağ Ermənistandır". Səsini belə çıxara bilmir".

Cənab İlham Əliyev Azərbaycan və Ermənistanın XİN başçılarının Moskva görüşündəki danışıqların nəticəsindən asılı olaraq, vəziyyətin hansı ssenari üzrə davam edəcəyinə aydınlıq gətirdi: "Hesab edirəm ki, bu görüş bir çox şeylərə aydınlıq gətirəcək. Onlar baza prinsiplərini qəbul etməlidirlər. Halbuki Paşinyan demişdi ki, o, onları qəbul etmir. Demişdi ki, Azərbaycana bir qarış torpaq verməyəcəyəm. Nə oldu bəs?! Gəl tut o işğal edilmiş torpaqları. Bəs verməyəcəkdin? Nə oldu verdin? Nə oldu qaçdın? İndi gedirsən onun-bunun dabanını yalaya-yalaya, özünü alçalda-alçalda öz xalqını alçaldırsan. Öz ölkəni sıfıra bərabər etmisən. Demişdi ki, verməyəcəkdi bu torpaqları. Kimdir səndən soruşan, verəcəksən ya verməyəcəksən?! Gəldik götürdük, vəssalam. Götürəcəyik, nə qədər lazımdır, istəsək artıqlaması ilə".

XİN başçılarının Moskva görüşü isə göstərdi ki, yenidən başından zərbə alan Ermənistan danışıqların əsas prinsiplərini yerinə yetirməyə məcbur edilib. Artıq status-kvo dəyişib. Hərbi və siyasi tələbləri indi Azərbaycan irəli sürür. Prezident İlham Əliyev qəti və məntiqli diplomatik gedişlərlə problemin həlli ilə bağlı mənzərəni inamla Azərbaycanın milli maraqlarına uyğunlaşdırır.

Erməni əsgəri Qarabağda ölmək istəmirsə, torpağımızdan çıxmalıdır. Onsuz da biz bu torpaqlara qayıdacağıq. Onsuz da biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Azərbaycan qan tökülməsini istəmir. Ona görə də sonuncu erməni əsgəri torpaqlarımızdan çıxmayınca haqq savaşımız davam edəcək: "Çıxın gedin bizim torpağımızdan, rədd olun bizim torpağımızdan! Gedin öz ölkənizdə yaşayın. Amma biz torpağımızı geri alacağıq. Ona görə bu tarixi şansı onlar qaçırmamalıdır", - deyə cənab İlham Əliyev bildirib.

Ali Baş Komandan xalqa növbəti müraciəti ilə bir daha lider qətiyyətini, yenilməz siyasi iradəsini nümayiş etdirdi. Hər bir azərbaycanlı bir daha tam əmin oldu ki, Azərbaycan işğal altında olan torpaqlarının bir qarışını belə düşmənə güzəştə getməyəcək. Əgər Paşinyan Azərbaycanın şərtləri ilə razılaşmasa, Ermənistan nəinki ordusunu itirəcək, hətta çıxılmaz sosial-iqtisadi, siyasi və hərbi böhranla üz-üzə qalaraq, tarix səhnəsindən silinəcək.

Prezident xalqa müraciətini bu nidalarla tamamladı: "Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi xəbər verir

## Gecə ərzində gərgin döyüşlər davam edib

Oktyabrın 9-da günün ikinci yarısından oktyabrın 10-u səhər saatlarınadək bütün cəbhəboyu hərbi əməliyyatlar müxtəlif intensivliklə davam edib, düşmənə atəş zərbələri endirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun davam etdirdiyi hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 “Akasiya” özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 “Zastava” zenit qurğusu, 2 radiolokasiya stansiyası və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

## *Azərbaycan Müdafiə Nazirliyi:* “Atəşkəs rejimi Ermənistan tərəfindən kobud şəkildə pozulur”

Oktyabrın 10-da saat 12.00-da atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq, Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Eyni zamanda, bir sıra yaşayış məntəqələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulur. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin bütün hücum cəhdləri bölmələrimiz tərəfindən uğurla alınıb. Ermənistan ordusuna qarşı adekvat cavab tədbirləri görülür.

## Azərbaycan Ordusu tərəfindən Qubadlıda “S-300” idarəetmə sistemi məhv edilib



Azərbaycan Ordusu tərəfindən Qubadlıda “S-300” idarəetmə sistemi məhv edilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

## Düşmənin bütün havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radiolokasiya stansiyası məhv edilib

Düşmənin bütün havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radiolokasiya stansiyası məhv edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata əsasən, ordumuzun məhv etdiyi 19J6 RLS qanadlı raketlər də daxil olmaqla hava hədəflərini aşkarlamaq, tanımaq və izləmək üçün nəzərdə tutulur.

Radar həmçinin hava hədəflərini və koordinatlarını, onun dövlət mənsubiyyətini və fəal maneə mənbələrini təyin etməyə imkan verir.



Mürəkkəb meteoşəraitdə və aşağı yüksəklikdəki hədəfləri aşkarlayan və izləyən 19J6 RLS-in müasir Avtomatlaşdırılan İdarəetmə Sistemləri (AİS) ilə inteqrasiyası mümkündür.

## Düşmənin daha bir zirehli tank bölməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən darmadağın edilib

Düşmənin daha bir zirehli tank bölməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən darmadağın edilib.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla Ermənistan silahlı qüvvələrinin tank bölməsinin sıradan çıxarılmasının görüntülərini təqdim edir.



## Düşmənin ağır döyüş texnikaları Azərbaycan Ordusunun bölmələrinin sərrast atəşi ilə məhv edilib

Düşmənin ağır döyüş texnikaları Azərbaycan Ordusunun bölmələrinin sərrast atəşi ilə məhv edilib.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla Ermənistan silahlı qüvvələrinin texnikalarının sıradan çıxarılmasının görüntülərini təqdim edir.



## Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan ballistik hədəfin qalıqlarının fotogörüntüləri yayılıb

Oktyabrın 9-da Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan 9K72 “Elbrus” əməliyyat-taktiki raket kompleksinin ballistik hədəfinin Azərbaycan Hava Hücumundan müdafiə sistemləri tərəfindən aşkarlanaraq məhv edilməsi barədə məlumat verilib.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin raketin vurulmasından sonra yerə dağılan qalıqlarını əks etdirən fotoları təqdim edir.



# İki canda bir ürək

# “AZƏRBAYCAN qalibdir”

## Qarabağda gedən müharibə Türkiyə mediasının əsas gündəm mövzusu olaraq qalır











































**Tarixin sınaqlarından daim üzüağ çıxmış Azərbaycan-Türkiyə münasibətləri ötən dövr ərzində daha da möhkəmlənərək iki ölkə arasında strateji əlaqələrin yeni səviyyəyə yüksəlməsini təmin edib. Müasir dünya reallığında hər iki ölkənin ətrafda gedən proseslərə vahid prizmadan yanaşması, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri mühüm əhəmiyyət kəsb edir.**

Bu mənada təmas xəttində erməni təxribatı nəticəsində baş verən hərbi əməliyyatların, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsinin qardaş ölkədə KİV-in xüsusi diqqət mərkəzində yer alması tamamilə təbiidir. Artıq günlərdir ki, Türkiyədə qəzetlərin baş xəbərləri Azərbaycanın uğurları barədədir.

**“Türkiyə” qəzeti** “Putindən ermənilərə soyuq duş” başlıqlı xəbərində Rusiya Prezidenti Vladimir Putinin Dağlıq Qarabağda gedən döyüşlərin Ermənistan ərazisində aparılmadığını diqqətə çatdırıb. Vurğulanıb ki, bu Ermənistanın bölgədə tək qaldığının növbəti sübutudur. O da əlavə olunub ki, Azərbaycanın tarixi torpağı olan Qarabağı işğalçılardan azad etmək haqqı var. Bu yolda Türkiyə xalqı dəstəyini hər zaman göstərib. Türkiyə Azərbaycanın haqq savaşında qalib gələcəyinə inanır.

**“Diriliş postası” qəzeti** “Paşinyan darmadağın” başlıqlı xəbərində Rusiya Prezidentinin son müsahibəsinin Ermənistanda, xüsusilə baş nazir Paşinyanda böyük bir qorxu yaratdığını diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlər qəhrəmanlıq göstərir, Ermənistana sarsıdıcı zərbələr endirirlər.

**“Aydınlık” qəzeti** “Putindən Ermənistana şok” başlıqlı xəbərində Rusiya Prezidentinin “Müharibə Ermənistan ərazisində aparılmır” fikirlərini oxuculara çatdırıb. Yazılıb ki, Dağlıq Qarabağ Ermənistanın 30 ilə yaxındır işğal etdiyi Azərbaycan ərazisidir. Beynəlxalq təşkilatların məlum qərarlarına və çağırışlarına baxmayaraq, Ermənistan bu torpaqlardan geri çəkilmir. İndiyədək Minsk qrupu problemi həll etmək üçün heç bir səy göstərməyib. Ermənistanın məsələyə qeyri-adekvat münasibəti səbəbindən 30 ildir davam edən bu problemin yeganə həlli işğala son qoyulmasıdır.

**“Yeni Şafak” qəzeti** “Ermənistana Putin şoku” başlıqlı xəbəri manşetdən təqdim edib. Qeyd olunur ki, Rusiya Prezidenti Vladimir Putin “Rossiya-1” telekanalına müsahibəsində “Dağlıq Qarabağ ətrafındakı son hadisələri necə dəyərləndirirsiniz” sualının cavabında deyib ki, biz çox təəssüflənirik ki, döyüş əməliyyatları indiyədək davam edir, bu əməliyyatlar Ermənistan ərazisində aparılmır.

**“Sabah” qəzeti** “Müşfiq Abbasovun qəhrəmanlığı” başlıqlı xəbərində yazır ki, Ağdam rayonunun Abdal-Gülablı kəndindən olan Müşfiq Abbasovun doğma yurdu 1992-ci il sentyabrın 4-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Müharibəyə oğulları ilə birlikdə yollanan Müşfiq şəhid oldu. O da yazılır ki, hazırda Azərbaycan Ordusu işğal olunmuş ərazilərin azad edilməsini uğurla reallaşdırır. Bu gün artıq Suqovuşan, Tərtər rayonunun Talış kəndi, Cəbrayıl, Füzuli rayonlarının kəndləri işğaldan azad edilib.

**“Hürriyet” qəzeti** “Zəfərə az qaldı”, “O balalar işğalı bitirdi” başlıqlı xəbərində general Hüseyn Mahmudovun fikirlərini diqqətə çatdırıb. Yazılır ki, hazırkı vəziyyət bölgədəki bütün böyük dövlətlərə real və ədalətli həll üsullarını tətbiq etmək imkanı verir. Otuz ildir bu problemin həlli üçün heç nə edilməyib, ona görə Azərbaycan problemini özü həll etmək məcburiyyətində qalıb və bunun üçün hərəkətə keçib, istədiyi nəticələrə də nail olmaqdadır.

**“Milat” qəzeti** “Ora Ermənistanın torpağı deyil” başlıqlı xəbərini manşetdən təqdim edib. Bildirilir ki, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Nəticədə cəbhə bölgəsində genişmiqyaslı hərbi əməliyyatlar başlayıb. Məqalədə Cəbrayıl şəhərinin işğaldan azad olunduğu sevinc hissi ilə yazılır. Müəllif onu da yazır ki, Azərbaycanın uğurlu əks-hücum əməliyyatı ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoyacaq.

**“Karar” qəzetinin** “Yerevan yenə mülkü əhaliyə atəş açdı” başlıqlı xəbərində yazılır ki, Ermənistan döyüş meydanında uduzduğuna görə Azərbaycanın mülki əhalisinə qarşı yeni-yeni təxribatlar törədir. “Ermənistan beynəlxalq hüququn heç bir norma və prinsiplərinə hörmət qoymur. Əhalinin sıx yaşadığı, cəbhə bölgəsindən, eyni zamanda, təmas xəttindən xeyli uzaqda yerləşən şəhər və rayonlara Ermənistan ərazisindən raket hücumları, qadağan olunmuş bombalarla zərbələr endirilir. Nəticədə, dinc əhali, o cümlədən qadınlar, uşaqlar, yaşlı insanlar həlak olub və ya yaralanıb. Yaşayış evlərinə, mülki obyektlərə ziyan dəyib” deyə məqalədə qeyd olunur.

**“Milliyet” qəzetinin** “Dünya artıq dayan desin” başlıqlı xəbərində vurğulanıb ki, Azərbaycan hansı sahədə ehtiyac duyarsa, Türkiyə hər cür dəstəyi verməyə hazır olduğunu dəfələrlə bəyan edib. Dağlıq Qarabağ Azərbaycanındır. İşğal olunmuş ərazilər azad edilməyib və bu günədək qəbul edilmiş qətnamələr yerinə yetirilməyib. Bir milyondan çox azərbaycanlı qardaşımız öz evlərinə dönməyi gözləyirlər.

Qəzetlərdən “Yeni Akit” “Qarabağlılar 27 ildən sonra sandıqdan açarları çıxardırlar”, “Türkgün” “Müharibə cinayəti”, “Yeni Asya” “Əliyevdən Paşinyana: Başqasını işə qarışdırma”, “Yeniçağ” “Qorxaq erməni mülkü əhalini hədəf alır”, “Son söz” “Azərbaycanımızın yanındayıq” və “Yeni söz” “Ermənistan ordusu darmadağın” başlıqlı xəbərləri oxuculara çatdırıb. Azərbaycanın əldə etdiyi uğurlar, əsgərlərimizin şücaəti barədə ətraflı bəhs olunur, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Ermənistanın təxribatları ilə bağlı fikirləri, qonşu dövlətlərin prosesə münasibətləri diqqətə çatdırılır.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*



**Arxa cəbhə**



# Rus pravoslavları şanlı ordumuzu dəstəkləyirlər

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz 30 ilə yaxındır işğal altında qalan torpaqlarımızı erməni faşistlərindən və əcnəbi muzdlulardan təmizləmək üçün uğurlu əks-hücum əməliyyatı həyata keçirir.



Qazandığımız qələbələri ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri də sevinclə qarşılayırlar. Etnik icmaların rəhbərlərinin imzaladığı birgə bəyanatda deyilir ki, Vətənimiz Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində hansısa qarşıdurmanın baş verməməsi düşmənlərimizi qıcıqlandırmaqla yanaşı, bizim mənəvi birliyimizin, dövlətin yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

İşğal olunmuş torpaqlarda keçirilən əks-terror əməliyyatına münasibət bildirən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının yepiskopu **Aleksandr İŞEİN** qəzetimizə müsahibəsində demişdir:

- Müxtəlif dinlərin və millətlərin nümayəndələri Azərbaycanda əzəldən bəri sülh, qarşılıqlı hörmət və həmrəylik şəraitində yaşayırlar. Ermənistanın xəyanətkar hərəkətlərindən hamımız sarsılmışıq. Ermənilər dəfələrlə ölkəmizdə yaşayan xalqların arasında ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmışdır. Lakin onlar heç vaxt niyyətlərinə nail ola bilməmişlər. Bu dəfə də etdikləri təxribatlara görə layiqli cavab alırlar.

Biz ərazilərimizi düşməndən təmizləyən Silahlı Qüvvələrimizi dəstəkləyirik. Eləcə də yürütdüyü daxili və xarici siyasətə, xalqın mənafeyi naminə göstərdiyi qətiyyətə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə təşəkkürümüzü bildiririk.

Azərbaycan torpaqlarının azad edilməsi uğrunda cəmiyyətdə hökm sürən həmrəylik, yüksək vətənpərvərlik hamımızı sevindirir.

Bu günlər Rus Pravoslav Kilsəsinin "Jen-mironosits" (Müqəddəs Mürdaşıyan Zənənlər Baş Kilsəsi) kafedral kilsəsində Azərbaycan Ordusunun qələbəsi üçün dua oxunmuşdur. Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda tezliklə möhkəm sülhün bərqərar olması üçün ibadət keçirilmişdir. Tədbir iştirakçıları öz ibadətlərində bildiriblər: "Biz Vətənimiz Azərbaycan üçün, xalqımız üçün, gecə-gündüz sülhü və təhlükəsizliyimizi qoruyan igid ordumuz üçün dua edirik. Tanrı əsgərlərimizin qəlbini cəsarət və qələbəyə inamla gücləndirsin. Torpaqlarımıza tezliklə sülhün gəlməsi üçün dua edirik. Azərbaycan Qarabağdır!"

Mən Ümummilli Lider Heydər Əliyevin "Çoxmillətlilik bizim zənginliyimizdir" sözlərini xatırlayıram və arzu edirəm ki, müharibə qələbəmizlə başa çatsın. Qoy ölkəmizdə hər kəs müxtəlif dini bayramlarını sərbəst və əmin-amanlıq şəraitində qeyd etsin. Xalqlarımız arasında birlik və qardaşlıq telləri daha da sarsılmaz olsun.

# *Milix YEVDAYEB:* "Azərbaycan qəhrəmanlar diyarıdır"

Azərbaycan torpaqlarının 30 ilə yaxın Ermənistanın işğalı altında qalması, düşmənin ardıarası kəsilməyən təxribatları xalqımızın səbir kasasını doldurmuşdur.



Sentyabrın 27-də Silahlı Qüvvələrimizə və dinc əhaliyə qarşı törədilmiş növbəti təxribatdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Dağlıq Qarabağda və işğal olunmuş digər ərazilərdə əks-hücum əməliyyatı başlamışdır. Məqsəd erməni faşistlərini və muzdlu terrorçuları əzəli torpaqlarımızdan təmizləməklə tarixi ədaləti, Azərbaycanın hamılıqla tanınmış ərazi bütövlüyünü bərpa etməkdir. Ordumuzun cəbhədə qazandığı uğurlar hər bir vətəndaşda fəxarət hissi doğurur.

Bakıdakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev qəzetimizə müsahibəsində son hadisələrə münasibət bildirmişdir:

- Cəbhədən yenicə qayıtmışam. Ağdamda, Ağcabədidə, Beyləqanda, Horadizdə gördüyüm Ali Baş Komandan-xalq-ordu birliyi məni valeh etdi. Ermənilərin törətdiyi təxribatlar, dinc əhalinin atəşə tutulması və qətlə yetirilməsi çox ağır cinayətdir. Lakin bu vəziyyətdə də əhali təmkinlə davranır, narahatlıq üçün əsas görmür. Hamı qəhrəman hərbçilərimizdən yeni-yeni qələbələr gözləyir.

Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından dərhal çıxarmasını tələb edən BMT qətnamələrinə məhəl qoymur və buna görə cəzalandırılmırdı. Cəzasızlıq isə düşməni yeni cinayətlər törətməyə sövq edirdi. Hazırda işğalçılar Azərbaycan Ordusundan layiq olduğu cavabı alırlar.

Milli azlıq nümayəndələri kimi biz ermənilərin bu təxribatlarını qətiyyətlə pisləyir, Vətənimiz Azərbaycanın ədalətli mübarizəsini dəstəkləyirik.

Müdriklər deyiblər ki, qəhrəmanı olmayan xalq bədbəxtdir. Vuruşan hər bir əsgərimiz qəhrəmandır. Biz ölkəmizin azadlığı uğrunda mücadilədə həmişə Azərbaycan xalqının yanındayıq. Millətimizin nümayəndəsi Albert Aqarunov bu yolda şəhid olmuş və Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Bizi bir-birimizdən ayırmaq mümkün deyil. Harada olsaq da, ürəyimiz birgə döyünür və bunu hamı bilir.

Mən bütün icmamız adından əcdadlarımıza minnətdaram ki, vaxtilə bu torpaqda məskunlaşıblar. Tarix boyu Azərbaycan xalqı bizi həmişə düşmənlərdən qorumuşdur.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. İnşallah, tezliklə qələbə qazanarıq və Azərbaycan bayrağı Qarabağda dalğalanar.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# Magistral və respublika əhəmiyyətli iki yolun tikintisi yekunlaşır



M5 Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Xaldan-Şəki hissəsinin əsaslı şəkildə yenidən qurulması ilə bağlı aparılan təmir-tikinti işləri yekunlaşmaq üzrədir.

Magistralın yenidən qurulan hissəsinin uzunluğu 46 km-dir. Yolun sözügedən hissəsi II texniki dərəcəyə uyğun olaraq yenidən qurulur. Yolun ümumi eni 15 metr olmaqla, bura 7,5 metr enində hərəkət hissə və hər bir istiqamət üzrə 3.75 metr enində çiyinlər daxildir.

Layihə çərçivəsində köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, yolun köhnə və yararsız quruntu qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək kipləşdirmə və qaya dolğusu işləri aparılmaqla yeni yol yatağı inşa olunub.

Torpaq işlərinin ardınca yol əsasının inşasına başlanılıb. Yol əsası optimal qırmadaş və qum-çınqıl qarışıqlarından istifadə olunmaqla salınıb. Hazırda yolboyu əlaqələndirici bitum səpilməklə 3 laydan ibarət yeni asfalt-beton örtüyünün döşənməsi işləri yekunlaşmaq üzrədir. Yolboyu 3 avtomobil körpüsünün inşası da tamamlanır.

Bütün işlər texnoloji ardıcıllıq və yüksək keyfiyyətlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılır. İşlərin yaxın müddət ərzində yekunlaşdırılması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

Aparılan işlər yolboyu yaşayan əhali ilə yanaşı, yoldan istifadə edən bütün vətəndaşların gediş-gəlişini rahatlaşdıracaq, Gürcüstan və əks istiqamətdə yük və sərnişin daşımasını xeyli asanlaşdırmaqla kənd təsərrüfatının və turizmin inkişafına müsbət təsir edəcək.

# Ermənistanın BTC və digər enerji infrastrukturunu hədəfə alan təxribatları ilə bağlı beynəlxalq enerji təşkilatlarına müraciət ünvanlanıb

Energetika naziri Pərviz Şahbazov sentyabrın 27-dən etibarən Ermənistanın Azərbaycanda mülki əhalini və strateji əhəmiyyətli enerji infrastrukturunu hədəfə alan davamlı hərbi təxribatları barədə beynəlxalq enerji təşkilatlarına rəsmi müraciət ünvanlayıb.

Müraciət Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC), Qaz İxrac edən Ölkələr Forumu (GECF), Beynəlxalq Enerji Xartiyası, Beynəlxalq Enerji Agentliyi (IEA), Dünya Neft Şurası (WPC), Dünya Enerji Şurasına (WEC) və Beynəlxalq Qaz İttifaqına (IGU) göndərilib.

Müraciətdə Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən beynəlxalq humanitar hüquq normalarına, xüsusilə də 1949-cu il Cenevrə Konvensiyasına və onun əlavə protokollarının tələblərinə məhəl qoymadığı qeyd edilib. Xüsusilə oktyabrın 4-də regionun ən böyük elektrik stansiyası olan Mingəçevir İstilik Elektrik Stansiyası, oktyabrın 6-da isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin raket zərbələri ilə atəşə tutulması, həmçinin Cənubi Qafqaz Boru Kəməri, Qərb İxrac Boru Kəməri ətrafında təhlükəli vəziyyətin yaranması regional və beynəlxalq enerji təhlükəsizliyinə, bu layihələrdə təmsil olunan dövlətlərin maraqlarına qarşı yönəlmiş terror cəhdləri kimi vurğulanıb.

"Azərbaycan Ordusunun beynəlxalq səviyyədə tanınan ərazilərimizdə hazırda apardığı əks-hücum əməliyyatları məhz Ermənistanın işğalçılıq siyasətinə son qoyulmasına, regionda təhlükəsizlik mühitinin bərqərar olmasına yönəlib. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə də bu işğala son qoyulmasını, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir".

Müraciətdə beynəlxalq ictimaiyyət və tərəfdaş ölkələrin Ermənistanın işğalçılıq siyasətinə, strateji əhəmiyyət daşıyan beynəlxalq layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərini raket hücumlarının hədəfinə çevirməsinə sərt şəkildə reaksiya verməsinə çağırış edilib.

# Doğma yurda qayıtmağımıza çox qalmayıb

## Şirvan şəhərində məskunlaşmış köçkün ailələri bu arzuyla yaşayırlar



Hər gün cəbhədən gələn qələbə soraqlı xəbərlər hamıdan əvvəl yurd-yuvasından, dədə-baba torpaqlarından didərgin düşmüş məcburi köçkünləri daha çox sevindirir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun düşmən üzərində hər qələbəsi onların doğma yurda qayıdacaqları günü yaxınlaşdırır. Şirvan şəhərində müvəqqəti məskunlaşan məcburi köçkünlər də bu əhvali-ruhiyyə, bu ovqatla yaşayırlar.

1991-ci ildən etibarən Qarabağın dağlıq hissəsindən və ətraf rayonlardan azərbaycanlı əhali erməni işğalçıları tərəfindən son nəfərinə kimi məhz azərbaycanlı olduqları üçün qovulmuşdu. Hazırda həmin əhalinin 2,5 min nəfərdən çoxu (758 ailə) Şirvan şəhərində yaşayır. Dövlətimizin şəhid ailələrinə, qazilərə, habelə qaçqın və köçkün ailələrinə göstərdiyi diqqət və qayğı çərçivəsində burada geniş bir ərazidə şəhərcik salınıb. Doqquzmərtəbəli 13 yaşayış binası, məktəb, tibb məntəqəsi, mədəniyyət mərkəzi, poçt binası, EATS, ticarət şəbəkəsi, işıq, su və qaz xətləri, yol infrastrukturu olan şəhərcikdə hər bir qaçqın ailəsinin geniş, işıqlı, hər cür şəraiti olan mənzili var. Lakin onların hər biri tezliklə dədə-baba ocaqlarına qayıtmaq arzusu ilə yaşayır. Onlarla görüşüb söhbət apardığımız zaman bunun bir daha şahidi olduq.

Cəbrayıl rayonunun Mahmudlu kəndindən olan Cavanşir Əhmədov dedi ki, sovetlər birliyi zamanı Rusiyanın ən ucqar yerlərində hərbi xidmətdə olub. "Əsgərlikdən gələndən sonra 1993-1996-cı illərdə qoşunlarımızın tərkibində Vətənimizin müdafiəsinə getmişəm. Bu gün də orduya getmək istəyirəm. Səfərbərlik və Hərbi Xidmət üzrə Dövlət Xidmətinin şəhər şöbəsinə müraciət etmişəm. Dedilər ki, gözlə, lazım olsa, özümüz çağıracağıq. Qarabağın, o cümlədən Cəbrayıl rayonunun azad olunmasında iştirak edən bütün əsgər qardaşlarım qarşısında baş əyirəm. Allah onların qollarına qüvvət, dizlərinə təpər versin. Belə olmasaydı, düşmənlərimiz igid əsgərlərimizin qarşısından qaçmazdılar".

Cəbrayıl rayonunun Böyük Mərcanlı kənd sakinləri İsmayıl Xudiyev, Elşad Məstəliyev də həmyerlilərinin dediyi sözlərə şərik olduqlarını bildirdilər. Laçın rayonundan qaçqın olan Nazim Mirzəyev: "İnanırıq ki, bizim digər rayonlarımızın da ərazisi azad ediləcək. Erməni işğalçılarının hücumu nəticəsində doğma elimizdən didərgin düşüb 1992-ci ildə buraya - Şirvan şəhərinə gəldik. Sağ olsunlar, buranın əhalisindən ancaq yaxşılıq görmüşük. Çoxumuz qız alıb qız vermişik, qohum olmuşuq. İki qardaşım, bir bacım burada vəfat edib. Atamı da 1996-cı ildə burada torpağa tapşırmışıq. O, vətən həsrəti ilə gözlərini yumdu. Ölməzdən əvvəl vəsiyyət etdi ki, Laçın geri alınanda məni dədə-baba qəbiristanlığımıza köçürərsiniz. Azərbaycanın hər yeri Vətəndir, amma biz doğulduğumuz, ata-babalarımızın dünyaya göz açdığı o torpağa qayıtmalıyıq. Başqa cür ola bilməz. Çünki torpaqdan pay olmur. Biz müqəddəs torpaqlarımızı, qədim yurd yerlərimizi heç kəsə verə bilmərik. Hamımız ölərik, amma geri çəkilmərik. 30 ilə yaxındır ki, bu günü gözləmişik. İndi elə tarixi məqam yetişib ki, bundan lazımınca istifadə etməliyik. Heç vaxt qələbəyə bu qədər yaxın olmamışıq. Qəhrəman xalqımız, dünya miqyasında tanınan, nüfuz qazanan Prezidentimiz, müzəffər ordumuz var. Bizim işimiz haqq işidir. Biz qalib gələcəyik! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Ermənilər torpaqlarımızdan son nəfərinədək çıxmalıdırlar. Qoy ağıllarını başlarına yığsınlar. Ölmək istəmirlərsə, çıxıb getsinlər. Onsuz da əsgərlərimiz onları, cənab İlham Əliyev demişkən, iti qovan kimi qovacaqlar".

Zəngilanlı qaçqınlar Əhməd Cabbarov, İsmayıl Hacıyev, Xocalıdan olan Arif Əzizov və başqaları da müzəffər ordumuzun işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad edəcəyini, tam qələbəmizin yetişəcəyi günün uzaqda olmadığını söylədilər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Sumqayıt KOB İnkişaf Mərkəzində əlil sahibkarlar üçün təlim keçirilib

Cəmiyyətin həssas kateqoriyasından, o cümlədən əlilliyi olan şəxslərin öz bizneslərini qurması və inkişaf etdirməsi üçün dəstək tədbirləri genişləndirilir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Sumqayıt KOB İnkişaf Mərkəzinin növbəti təlimləri bu kateqoriyadan olan sahibkarlar üçün təşkil olunub.

Sumqayıt KOB İnkişaf Mərkəzində əlilliyi olan mikro sahibkarlar üçün "Öz biznesinə başla" mövzusunda təlim keçirilib. Pandemiya ilə əlaqədar zəruri qaydalara əməl edilməklə təşkil olunmuş tədbirdə təlimçi-ekspert Araz Paşayev tərəfindən biznesə başlamaq və mövcud biznesi genişləndirmək üçün zəruri addımlar, o cümlədən biznes üçün müvafiq istiqamətin seçilməsi, marketinq, satış, tərəfdaşlığın qurulması, mövcud maliyyə alətləri, vergi güzəştləri və digər istiqamətlər üzrə məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

"Əlil sahibkarlar təşkilatı" İctimai Birliyinin sədri Mirzə Məmməd Vəliyev əlilliyi olan şəxslərin öz biznesini qurması və inkişaf etdirməsi üçün biznesyönümlü təlim və məsləhət xidmətlərinin əhəmiyyətini vurğulayıb, bu istiqamətdə Sumqayıt KOB İnkişaf Mərkəzi ilə əməkdaşlığın davam etdiriləcəyini bildirib.

Qeyd edək ki, Sumqayıt KOB İnkişaf Mərkəzi tərəfindən bu cür tədbirlər mütəmadi olaraq təşkil olunacaq.

# Kənd Təsərrüfatı Nazirliyinin mikroavtobusları bölgələrdə vətəndaşlara səyyar xidmətə başlayıb

Kənd Təsərrüfatı Nazirliyinin müasir texnoloji avadanlıqlarla təchiz edilmiş mikroavtobusları bölgələrdə vətəndaşlara səyyar xidmət göstərməyə başlayıb.



İlk aqrar səyyar xidmət Xaçmaz rayonunun Müşkür kəndində təşkil olunub. Fermerlər Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində öz payızlıq əkinlərini bəyan ediblər.

Mikroavtobuslar növbə sistemi, müasir kompüter avadanlıqları, internet təminatı qurğuları, sürətçıxaran cihazlar, qeydiyyat proseduru üçün lazım olan bütün avadanlıqlarla təchiz olunub.

Səyyar xidmət bölgələr üzrə qrafik əsasında təşkil olunur və xidmətin təşkili barədə DAİM-lər tərəfindən fermerlərə məlumat verilir.

Qeyd edək ki, ən müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar xidmət mikroavtobusları vasitəsilə qrafik üzrə bütün rayonlarda xidmətin təşkili nəzərdə tutulur. Xidmət əsasən rayon mərkəzlərindən uzaqda yerləşən kəndlərdə təşkil olunur.

# Gədəbəydə yaşayan malakanlar Qarabağla nəfəs alırlar

Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas istiqamətlərindən biri də milli azlıqların hüquq və azadlıqlarının qorunmasıdır. Tolerantlıq baxımından nümunə kimi özünü təsdiqləyən Azərbaycan indi bütün xalqların azad yaşadığı bir ölkəyə çevrilmişdir.





Cəsarətlə demək olar ki, ölkəmiz dilindən və milliyyətindən, irqindən və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarının hüquq və azadlıqlarını təmin edir.

Bu baxımdan digər millətlərin nümyəndələri kimi, Gədəbəydə yaşayan malakanlar da özlərini azərbaycanlılardan ayrı hiss etmirlər. Bu birlik xüsusən indi - işğal olunmuş Qarabağ torpaqlarının azad edildiyi gündə daha çox görünür.

Azərbaycanda malakanlarla yanaşı, ruslar, ukraynalılar, tatarlar, yəhudilər və digər xalqların nümayəndələri yaşayırlar. İndiyədək azərbaycanlılarla onlar arasında heç vaxt ayrı-seçkilik olmayıb. Əksinə, onlar özlərini bu ölkənin əsl vətəndaşı hesab ediblər. Dağlıq Qarabağ müharibəsi başlayanda azərbaycanlılarla birlikdə həmin millətlərin nümayəndələri silaha sarılaraq erməni işğalçılarına qarşı döyüşüblər. Milliyyətcə malakan olan Vladimir Koveşnikov da Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Nikolay Bıçkov Gədəbəydə rus icmasının rəhbəridir. Azərbaycan dilində sərbəst danışan Nikolay rayonda yaşayan rus icmasının hər bir üzvünə göstərilən qayğıdan danışır: "Dünyanın heç bir yerində Azərbaycandakı qədər azsaylı xalqlara diqqət və qayğı göstərilmir. Biz burada özümüzü gəlmə, yad saymırıq. Azərbaycan bizim ikinci vətənimizdir. Bu günlər Dağlıq Qarabağ uğrunda gedən döyüşləri biz də həyəcanla izləyirik. Axşamlar bir yerə toplaşıb televizordan məlumat alırıq. Ordumuzun cəbhədə qazandığı uğurlar bizi də hədsiz sevindirir. Əminik ki, haqq-ədalət qalib gələcək və Azərbaycan Ordusu erməniləri qovaraq torpaqlarımızı yağı düşməndən azad edəcək".

Nikolay Bıçkov ermənilərin mülki əhalini ağır artilleriyadan atəşə tutmasına da münasibət bildirdi. Dedi ki, onların Azərbaycanın şəhər və rayonlarında olan kilsə və məscidləri topa tutması insanlığa yaraşmayan hərəkətlərdir. Bu, vandalizm aktıdır və dünya ictimaiyyəti bu vandallığa göz yummamalıdır.

Gədəbəyin Novoivanovka kəndi Ermənistanla həmsərhəd ərazidə yerləşir. Lakin düşmənin tez-tez təxribat törətməsi kənd camaatını qətiyyən qorxutmur. Azərbaycan Ordusunun gücünə inanan kənd sakinləri öz yurdlarını tərk etmirlər. Dövlətdən hər cür dəstək görən ivanovkalılar əmindirlər ki, işğal altında olan torpaqlarımız tezliklə geri qaytarılacaq.

Azərbaycan təkcə yeraltı və yerüstü sərvətləri ilə deyil, həm də zəngin multikultural dəyərləri ilə tanınır. Uzun illərdir ki, ölkəmizdə müxtəlif dinə və etnik mənşəyə malik xalqlar dost, qardaş, bərabərhüquqlu vətəndaşlar kimi yaşayırlar. Azərbaycan burada ömür sürən hər kəsin doğma vətəninə çevrilmişdir. Qonaqpərvərlik, dostcanlıq, xeyirxahlıqla yanaşı, tolerantlıq da Azərbaycan xalqına xas olan mənəvi keyfiyyətlərdəndir. Xalqımız həmişə digər milli azlıqların öz dinlərini, dillərini və mədəniyyətlərini yaşatmalarına hörmətlə yanaşmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# 103,5 min şəxsə e-qaydada pensiya, müavinət və təqaüd təyin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, avtomatlaşdırılmış təyinat sistemləri vasitəsilə bu ilin yanvar-sentyabr aylarında 11,08 min şəxsə elektron qaydada pensiya, 61 min şəxsə isə e-qaydada müavinət-təqaüd təyin olunub.

Xatırladaq ki, 2019-cu ilin əvvəlindən Azərbaycanda pensiyaların, ötən ilin son aylarında isə müavinət və təqaüdlərin (ümumən 21 sosial təminat növünün) elektron təyinat sistemi işə salınıb. Həmin e-sistemlər vasitəsilə ümumilikdə 103,5 min şəxsə e-qaydada pensiya, müavinət və təqaüd təyin edilib.

Bu proaktiv xidmətlər vətəndaşlara hüquqları yaranan zaman onlara pensiya, müavinət, təqaüdün avtomatik olaraq təyin olunmasına imkan verib. Artıq sosial ödənişlərin təyinatı zamanı vətəndaşların hansısa quruma müraciət edərək sənəd təqdim etmələrinə ehtiyac yoxdur və təyinatlar məmur-vətəndaş təması olmadan, tam şəffaf həyata keçirilir. Digər bir sıra sosial təminat növləri üzrə təyinatların da elektronlaşdırılması işləri davam edir.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir



"Quldur Ermənistan Azərbaycan torpaqlarından çıxmalıdır. Əks halda, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün sonadək mübarizə aparacaq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan dostluq qrupunun rəhbəri Şamil Ayrım Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının (AKP) birgə keçirdiyi videokonfransda deyib.

Şamil Ayrım bildirib ki, hazırkı şəraitdə Azərbaycanda müşahidə olunan milli birlik qürurvericidir. Bu birlik sayəsində Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad edəcək və bu məsələdə Türkiyə daim qardaş ölkənin yanındadır.

Şamil Ayrım bu günlərdə Türkiyənin Xarici İşlər naziri ilə birlikdə Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olduğunu deyib və bu görüşlə bağlı təəssüratlarını bölüşüb. O, həmçinin hər gün azərbaycanlı həmkarları ilə əlaqə saxlayaraq, cəbhədəki vəziyyətlə maraqlandığını söyləyib. "Ermənilərin dinc insanları atəşə tutması vəhşilikdir", - deyən Şamil Ayrım qələbənin Azərbaycanla olacağına əminliyini ifadə edib.

❖ ❖ ❖



Avropa Parlamentinin Macarıstandan olan deputatı Marton Döndöşi plenar iclasda çıxış edərək, Ermənistanı işğalçı qoşunlarını Azərbaycandan çıxarmağa çağırıb.

AZƏRTAC xəbər verir ki, Döndöşinin fikrincə, "müharibəni kim başlayıb" sualına cavab tapmaq üçün müasir günlərə yox, 30 il əvvəlki dövrə nəzər salmaq lazımdır.

Deputat xatırladıb ki, Ermənistan o vaxt Azərbaycana qarşı təcavüz törədib, onun ərazilərinin 20 faizini işğal edib və sakinlərini qovub. "Münaqişənin nizamlanması yalnız Ermənistanın işğalçı qüvvələrinin Azərbaycandan tamamilə çıxarılması və ölkənin ərazi bütövlüyünün bərpa edilməsi əsasında mümkündür", - deyə Döndöşi vurğulayıb.

❖ ❖ ❖



"Türkiyənin Azərbaycana dəstəyi dəyişməzdir".

AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının baş katibi, deputat Fatih Şahin oktyabrın 8-də Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının birgə keçirdiyi videokonfransda deyib.

Fatih Şahin bildirib ki, Azərbaycanın tarixi torpağı olan Qarabağı işğalçılardan azad etmək haqqı var. Bu yolda Türkiyə xalqı dəstəyini hər zaman ifadə edib.

"AKP və YAP olaraq sıx əlaqələrimiz var. Hesab edirəm ki, indiki məqamda əlaqələrimizi daha da gücləndirməliyik. Bizim birliyimiz dövlətlərimizin birliyinin daha da güclənməsinə xidmət edir. Biz Azərbaycanın haqq savaşında qalib gələcəyinə inanırıq", - deyə Fatih Şahin söyləyib.

❖ ❖ ❖



Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Gürcüstanın Patriarxı II İlya ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və gürcü xalqları, eləcə də hər ölkənin ali dini qurumları arasındakı münasibətlər diqqət mərkəzində olub.

Səfir Faiq Quliyev qəbula və sülhə çağırışla bağlı bəyanatlarına görə II İlyaya minnətdarlığını bildirib.

Patriarx Ermənistan ilə Azərbaycan arasında hərbi əməliyyatların aparılmasından narahatlığını bir daha ifadə edib.

❖ ❖ ❖



Oktyabrın 6-da Ermənistan silahlı qüvvələri Bakı-Tbilisi-Ceyhan strateji boru kəmərini atəşə tutublar. Bundan əvvəl erməni ordusu Mingəçevirdəki elektrik stansiyasına zərbə endirməyə cəhd etmişdi. Raketlər, həmçinin Azərbaycanın ikinci böyük şəhəri, cəbhə xəttindən uzaqda yerləşən Gəncəyə də zərbələr endirib. Xatırladaq ki, Gəncənin bilavasitə yaxınlığında Göygöl şəhəri - XIX əsrin əvvəlində Azərbaycana köç etmiş və burada məskən salmış almanlar tərəfindən əsası qoyulan və Qafqazda Almaniya mədəni irsinin mühüm elementlərini özündə tərənnüm edən keçmiş Helenendorf şəhəri də yerləşir.

Bu barədə Azərbaycanın Almaniyadakı fəxri konsulu, AFR hökumətinin sabiq spikeri Otto Hauzer bildirib.

Otto Hauzer deyib: "Mülki vətəndaşlar arasında çoxsaylı qurbanlar, Azərbaycanın müstəsna əhəmiyyətli infrastrukturuna hərbi zərbələr, kasetli döyüş sursatlarının geniş yayılması və onlardan istifadə edilməsinin artıq təsdiqlənməsi Cenevrə Konvensiyasının müddəalarını kobud şəkildə pozur. Ermənistanın təcavüzkar hərəkətlərinə münasibətdə və erməni işğalçı qoşunlarının münaqişə zonasından dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin yerinə yetirilməsində beynəlxalq ictimaiyyətin dəqiq mövqe tutması xüsusilə vacibdir. Almaniya Federativ Respublikası Minsk qrupunun üzvü kimi yuxarıda xatırladılan qətnamələrin dərhal icrasına öz töhfəsini verə bilər və verməlidir".

❖ ❖ ❖




"ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransa prezidenti Emmanuel Makron Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı neytrallıq nümayiş etdirməli və oda benzin tökməməlidir".

AZƏRTAC xəbər verir ki, bu fikri Fransa Senatında Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Alən Uper şəxsi "Twitter" hesabında paylaşıb.

Senator Fransa prezidentini onsuz da gərgin olan vəziyyəti daha da qızışdırmamağa çağırıb.

❖ ❖ ❖




Türkiyənin Kocaeli vilayətinin Körfəz bələdiyyəsinin binası üzərində Azərbaycan bayrağı asılıb.

AZƏRTAC xəbər verir ki, xüsusi hazırlanmış bu böyük Azərbaycan bayrağının binanın üzərinə Körfəz bələdiyyəsinin sədri Şener Söğütün təşəbbüsü ilə olub.

Türkiyədən növbəti qardaş dəstəyi olan bu bayraq ölçüsünün böyüklüyünə görə İstanbul-Ankara yolundan rahatlıqla görünür.

❖ ❖ ❖



İranın Ali Rəhbəri Seyid Əli Xamneyinin Xarici siyasət üzrə müşaviri Əli Əkbər Vilayəti Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha bəyan edib.

AZƏRTAC xəbər verir ki, Ə.Ə.Vilayəti İranın nüfuzlu "Keyhan" qəzetinə müsahibəsində deyib: "Azərbaycanın işğal olunmuş əraziləri boşaldılmalıdır. Bütün ölkələrin ərazi bütövlüyünə hörmət edilməsi BMT Nizamnaməsinin əsas prinsiplərindən biridir və biz də təşkilatın üzvü olaraq, ona sadiq qalırıq. Azərbaycanın 7 rayonu Ermənistan tərəfindən işğal edilib. BMT Təhlükəsizlik Şurası Bununla bağlı 4 qətnamə qəbul edib ki, onların hamısında Azərbaycanın bu bölgələrinin işğaldan azad edilməsi tələb olunur. BMT-nin üzvü olaraq Ermənistanın işğal edilmiş əraziləri Azərbaycana qaytarmasını istəyirik. Bu ərazilərin işğalı nəticəsində 1 milyondan çox azərbaycanlı köçkün düşüb. Onlar tezliklə vətənlərinə qayıtmalıdırlar".

Əli Əkbər Vilayəti diqqətə çatdırıb ki, müharibə insan itkisi və faciələrə səbəb olduğu üçün İran problemin danışıqlar yolu ilə həllinə tərəfdardır. Rəsmi Tehran da vasitəçilik etməyə hazırdır.

Qeyd olunub ki, İran bölgəyə kənardan silahlı qüvvələrin, yaxud da döyüşçülərin gətirilməsinin qəti əleyhinədir.

❖ ❖ ❖




Nüfuzlu "Euractiv" media şəbəkəsinin italyan versiyası olan "Euractive.it" portalında Romanın La Sapienza universitetinin dosenti Daniel Pommier Vinçellinin müəllifi olduğu "Dağlıq Qarabağ münaqişəsi: tarix və din ilə heç bir əlaqəsi yoxdur" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, müəllif məqalədə Ermənistan tərəfindən qəsdən və məqsədli şəkildə iddia edildiyinin əksinə olaraq, Dağlıq Qarabağ münaqişəsinin dini mahiyyət daşımadığını və din ilə heç bir əlaqəsinin olmadığını izah edir.

Məqalədə XX əsrin sonlarına kimi Azərbaycanın Dağlıq Qarabağ bölgəsində etnik, milli və dini birgə yaşayışın hökm sürdüyü, regionun çoxmilli xarakter daşıdığı və tarixən həm etnik erməni, həm də azərbaycanlı qrupların yaşadığı yer olduğu diqqətə çatdırılır. D.Pommier regionun mürəkkəb tarixini başa düşmək üçün nümunə kimi, XVIII əsrdə ərazidə yaşayan xristian və müsəlmanların başqalarına müharibə etmək üçün öz aralarında ittifaqa girə bildiyini, bu səbəbdən münaqişənin etnik və dini deyil, maddi məsələlərə görə baş verdiyini əsaslandırır. Qeyd edir ki, Qarabağ xanlığına aid olan Dağlıq Qarabağ bölgəsi buranın azərbaycanlı xanı və rus qoşunlarının başçısı Sisiyanov tərəfindən 1805-ci ildə imzalanmış Kürəkçay müqaviləsi nəticəsində çar imperiyasının tərkibinə daxil edilmişdi və bu müqavilədə erməni azlıq barədə heç bir istinad yox idi. Eləcə də bölgə XX əsrin 20-ci illərində Stalin tərəfindən Ermənistandan qoparılmayıb. 1919-cu ildə ərazidəki yeganə Qərbə aid güc olan Böyük Britaniya Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyini müvəqqəti tanımışdı və Paris Sülh konfransından qəti qərar gözləyirdi. Bu, sovetlər tərəfindən artıq mövcud olan vəziyyətin təsdiqi ilə yekunlaşmışdı.

Müəllifin fikrincə, münaqişənin, həmçinin dini mahiyyət daşıması və Türkiyənin "təcavüzünə" və hətta cihadizmə qarşı "xristian müqaviməti" olmasına dair iddialar qeyri-realdır. O bildirir ki, Azərbaycan din və dövlətin ayrı olduğu, müsəlmanlar, xristianlar və yəhudilərin dinc birgəyaşayışının təmin edildiyi dünyəvi dövlətdir. Bundan əlavə, Azərbaycan qonşusu İran kimi şiələrin üstünlük təşkil etdiyi bir ölkədir, İranın isə xristian Ermənistan ilə yaxın əlaqələri var. Bu səbəblərə görə D.Pommier münaqişənin dini xarakter daşımasını təsəvvür etməyin və onun səbəblərini tarixi legitimliyə bağlamağın yanlış olduğunu hesab edir. Vurğulayır ki, həll yolu beynəlxalq hüquqa əsaslanmalıdır. Çünki bu yol tarix və dinin asanlıqla ziddiyyət təşkil etdiyi məzmuna tətbiq oluna bilən yeganə vasitədir. O, Ermənistanın baş nazirinin istinad etdiyi "sivilizasiyaların toqquşması" iddiasını ötən əsrin 90-cı illərin cəlbedici nəzəriyyəsi olduğunu deyir, lakin bu nəzəriyyənin vaxtının artıq çoxdan keçdiyini bildirir. Eləcə də Dağlıq Qarabağda əlində silah xristianlığı mövcud olmayan islam təhlükəsindən qorumağa hazır erməni keşişin şəklinin çox məyusedici olduğunu, bunun bir əlində xaç tutan, digər əli ilə isə romasayağı salam verən İtaliya Sosial Respublikasının keşişlərini xatırlatdığını vurğulayır. Məqalənin sonunda müəllif tarixi və dini unutmağa, müharibəyə konkret həll yolu tapmağa çağırış edir.

❖ ❖ ❖



"Son günlər Dağlıq Qarabağ münaqişəsi ətrafında eskalasiyanın şahidi oluruq. Bu münaqişə 30 ilə yaxındır ki, həllini tapmayıb. Beynəlxalq ictimaiyyət bu məsələnin birbaşa həllini tapmağa çətinlik çəkir. Hər hansı bir dövlət, xalq ölkəsinin ərazi bütövlüyünü qorumağa çalışır. Bu baxımdan bu gün Azərbaycan öz torpaqlarını və ərazi bütövlüyünü qorumağa çalışır".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində qazaxıstanlı politoloq Kazbek Mayqeldinov bildirib.

O qeyd edib ki, Qazaxıstan münaqişənin beynəlxalq hüququn normaları əsasında həllinin tərəfdarıdır. Türkiyə Azərbaycana əsl qardaş kimi mənəvi dəstək göstərir. Əslində, qazax xalqı sosial şəbəkələrdə "Mən azərbaycanlıyam" çağırışı edir. Bu, qazax xalqının belə çətin məqamda türk qardaşlarına mənəvi dəstək göstərmək istəklərindən irəli gəlir. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

❖ ❖ ❖



Polşa Azərbaycanlıları Koordinasiya Şurası və Varşavadakı Azərbaycan Evi ölkə Seyminə (parlament) etiraz məktubu ilə müraciət edib. Buna səbəb Seymin deputatı Marta Kubiakın biraylıq maaşını qondarma və separatçı Dağlıq Qarabağ rejiminə göndərməsi olub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və Polşa dostluğunun qədim tarixə malik olduğunu vurğulayan məktub müəllifləri deputat Marta Kubiakın hərəkətlərinin mənəvi baxımdan düzgün olmamasından təəssüfləndiklərini bildirərək yazıblar: "Maaşını Dağlıq Qarabağın separatçı, beynəlxalq hüquq tərəfindən qəbul edilməyən rejiminə göndərmək və bunu açıq şəkildə elan etmək deputatın əsas missiyası olmamalıdır. Bu, Polşanın milli qanunlarına və BMT Təhlükəsizlik Şurası, Baş Assambleyası, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT qarşısında qəbul etdiyi öhdəliklərinə ziddir".

Deputatın qeyri-qanuni hərəkətinin və yersiz niyyətinin yalnız Azərbaycan ilə Polşa arasındakı qarşılıqlı münasibətləri pozmağa xidmət etdiyinə diqqəti cəlb edən soydaşlarımız Seymin üzvlərini bu hərəkəti pisləməyə çağırıblar. Bildirilib ki, yalnız bu cür hərəkətlərin pislənməsi münasibətlərimizin nə qədər güclü və sarsılmaz olduğunu göstərə bilər.

Polşa Azərbaycanlıları Şurasının sədri Fərid Cəfərli və bu ölkədə yaşayan digər soydaşlarımız da Marta Kubiakın şəxsi elektron poçtuna etiraz məktubları göndəriblər.

❖ ❖ ❖



"Dağlıq Qarabağ birmənalı olaraq Azərbaycan ərazisidir. Ermənistan həmin əraziləri işğal edib. Bunu heç kim inkar edə bilməz".

AZƏRTAC xəbər verir ki, bu sözləri gürcü politoloq Simon Kopadze Tbilisidə Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş "dəyirmi masa"da söyləyib.

S.Kopadze deyib ki, Azərbaycan 30 il gözləməklə sülhməramlı niyyətini çoxdan sübut edib. Bu gün həmin əraziləri işğaldan azad etmək Azərbaycan dövlətinin və xalqının haqq işidir və heç kim ona maneə ola bilməz.

❖ ❖ ❖



Misirin "Dialoq" Siyasi Araşdırmalar və Mətbuat Mərkəzinin qadın və uşaq araşdırmaları bölməsinin müdiri, politoloq Əmirə Əbdülhəkim "Aldiplomasy" nəşrində "Azərbaycan öz hüquqlarını bərpa edir" sərlövhəli məqalə ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, politoloq bir həftədən çoxdur Azərbaycanın 1990-cı illərdə Ermənistan tərəfindən işğal edilmiş 20 faiz ərazisinin azad edilməsi uğrunda döyüşlər apardığını bildirib. Qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının, digər beynəlxalq təşkilatların erməni hərbi birləşmələrinin həmin torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasına dair sənədlərinə baxmayaraq, Ermənistan bu tələblərə məhəl qoymur.

Ə.Əbdülhəkim qeyd edib ki, atəşkəs rejiminə də əməl etməyən Ermənistan 26 il müddətində gərginliyi artırmaqda davam edib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin onilliklərdir həlli mümkün olmayan Fələstin problemindən sonra sülhə və təhlükəsizliyə ən böyük ikinci təhdid olduğunu vurğulayan politoloq yazıb ki, öz torpaqlarını işğaldan azad etmək Azərbaycanın haqqıdır. O, bunu mərhum Prezident Camal Əbdel Nasirin vaxtilə Misir ərazilərində bu ölkənin suveren hüquqlarını bərpa etməsi ilə müqayisə edib.

Misirli politoloq vurğulayıb ki, davam edən döyüşlərin dayandırılması və atəşkəsə nail olunmasının yeganə yolu Ermənistanın BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əməl etməsi və öz qoşunlarını Azərbaycan torpaqlarından çıxarmasıdır.

"Yekun olaraq bildirmək istəyirəm ki, hansı tərəfin - təcavüzkarın və ya torpaqlarını işğaldan azad edən ölkənin haqlı olmasını araşdırmağa da ehtiyac yoxdur. Azərbaycan bu müharibədə öz hüququnu bərpa edir", - deyə Ə.Əbdülhəkim yazıb.

❖ ❖ ❖



"Ermənistan işğalçı, terrorçu və iddiaları ilə imkanları arasında heç bir uyğunluq olmayan bir ölkədir. Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərinə raket atmaq bu dövlətin əsl mahiyyətini ortaya qoyur". Bu fikirləri AZƏRTAC-a türkiyəli professor Toğrul İsmayıl söyləyib.

Ermənistanın Dağlıq Qarabağa çox uzaqda yerləşən şəhərləri, mülki əhalini, yaşayış binalarını hədəf almasını beynəlxalq hüquqa həqarət kimi dəyərləndirən professor deyib: "Təhlillər göstərir ki, Ermənistan raket və artilleriya hücumlarını böyük təxribatlar üçün həyata keçirir. Əvvəla, cəbhədə böyük məğlubiyyətlə qarşılaşan təcavüzkar tərəfin rəhbərliyi bu hücumlarla ölkədəki çaşqınlığı müəyyən qədər aradan qaldırmağa cəhd göstərir. Lakin bu cəhdlə yalnız cahil insanları aldatmaq olar. İctimai rəylərdən aydın görünür ki, Azərbaycan və Ermənistan əhalisinin Dağlıq Qarabağ məsələlərinə münasibətləri çox fərqlidir. Azərbaycan xalqı böyük ruh yüksəkliyi ilə Prezident İlham Əliyevin ətrafında birləşərək Milli Orduya dəstək verir. Ermənilərdə isə vəziyyət çox fərqlidir. Əhalinin böyük əksəriyyəti saxta "böyük Ermənistan" ideologiyasının əsirinə çevrilib. Ermənistanda əhalinin çox hissəsi yaxşı başa düşür ki, Azərbaycanın dinc əhalisinin raket zərbələrinə tutulması xalqa və ölkəyə fayda gətirməyəcək. Buna baxmayaraq, mövcud rejim və saxta təbliğat əhalini hələ ki, dözməyə vadar edir".

Türkiyəli professor vurğulayıb ki, Ermənistan işğal altındakı Azərbaycan torpaqlarından çəkilərsə, qısa zamanda bölgəyə sülh və yeni bir inkişaf modeli gələ bilər.

❖ ❖ ❖

Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov Xorvatiyada milli azlıqları təmsil edən "Kali Sara" Birliyinin mərkəzi ofisində Ermənistanın ölkəmizə qarşı hərbi təxribatı barədə təqdimatla çıxış edib.

AZƏRTAC xəbər verir ki, səfir əvvəlcə sentyabrın 27-dən başlayan döyüşlərdə Ermənistan Azərbaycanın xüsusilə mülki əhalisini və mülki infrastrukturlarını hədəfə aldığını qeyd edib. Bildirib ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağdan uzaqda yerləşən Gəncə, Mingəçevir, Beyləqan, Bərdə və digər şəhərlərini atəşə tutublar.

Tədbir iştirakçılarına Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi və hüquqi aspektləri, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun 30 ildir Ermənistan silahlı qüvvələrinin işğalı altında saxlanması, bir milyondan çox azərbaycanlının doğma yurdundan didərgin düşməsi, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş torpaqlarından erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnaməsinə işğalçı tərəfin riayət etməməsi haqqında ətraflı məlumat verilib.

Diplomat mətbuatda, sosial şəbəkələrdə Ermənistanın Azərbaycanın guya Suriyadan gələn muzdlu döyüşçülərdən istifadə etməsi ilə bağlı yaydığı əsassız iddiaları təkzib edib, ölkəmizin müasir standartlara uğun komplektləşmiş ordusunun torpaqlarımızı qorumağa hər zaman qadir olduğunu vurğulayıb. Qeyd edib ki, əksinə, Ermənistan açıq şəkildə PKK terror təşkilatının üzvlərini, Suriya və Livandan erməni mənşəli könüllülər adı altında muzdluları qeyri-qanuni şəkildə Azərbaycanın işğal altında olan ərazilərində yerləşdirib.

F.Qurbanov Xorvatiyanın bəzi KİV-də yayımlanan xəbərlərə də toxunub. Bildirib ki, Ermənistan tərəfindən ortaya atılan "guya Qarabağ uğrunda müharibə dini zəmində baş verir", "xristian və islam qarşıdurmasıdır" kimi iddiaların tamamilə əsassız olduğunu vurğulayıb. Xorvatiyada dini inanca olan həssaslığı nəzərə alaraq, belə məlumatların əhali arasında çaşqınlıq yaratmaq və Azərbaycan xalqının haqqı olan öz torpaqlarına qayıtmaq hüququna kölgə salmaq məqsədi güddüyünü deyib. Səfir Azərbaycanda uzun illərdir multikonfessional və tolerant mühitin hökm sürdüyünü qeyd edib.

Həmçinin bildirilib ki, Ermənistanın baş naziri N.Paşinyanın danışıqlar prosesini mənasız edən bəyanatları, müdafiə nazirinin "yeni torpaqlar üçün yeni müharibə" hərbi doktrinasını elan etməsi ölkəmizi təxribata çəkmək məqsədi daşıyıb.

Tədbirdə Xorvatiya parlamentinin üzvü V.Kaytazi, "Kali Sara" Birliyinin rəhbərlər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

❖ ❖ ❖

Azərbaycanın Latviyadakı səfiri Cavanşir Axundov Latviya Seyminin Xarici əlaqələr komitəsinin sədri Rihard Kols və komitənin digər üzvləri ilə videokonfrans formatında görüş keçirib.

AZƏRTAC xəbər verir ki, görüşdə diplomat Ermənistanın ölkəmizə qarşı son hərbi təxribatları və insan tələfatı barədə komitə üzvlərinə ətraflı məlumat verib, onların Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı suallarını cavablandırıb.

Səfir Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməsi üçün təcavüzkara beynəlxalq təzyiqlərin göstərilməsinə çağırış edib. O, həmçinin işğalçı qoşunların çıxarılması ilə bağlı Ermənistanın Azərbaycana vaxt cədvəli təqdim etməli olduğuna dair Azərbaycan Respublikası Prezidentinin şərtini çatdırıb.

❖ ❖ ❖

Ölkəmizin Özbəkistandakı səfirliyində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttindəki son vəziyyətlə əlaqədar yerli jurnalistlər üçün mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Ermənistanın son təxribatları, sentyabrın 27-dən başlayaraq işğalçı ordunun Azərbaycan mövqelərinə genişmiqyaslı hücumu, buna cavab olaraq ordumuzun əks-hücumu haqqında ətraflı məlumat verib.

Səfir deyib: "Ermənistan ordusunun Azərbaycan mövqelərinə yeni təcavüzləri son aylarda törətdiyi təxribatların, iyulun 12-dən 16-dək Tovuz istiqamətindəki hücum cəhdlərinin, avqustun 23-də Goranboy istiqamətində kəşfiyyat-diversiya qrupunun göndərilməsinin, Dağlıq Qarabağda, o cümlədən qədim Şuşa şəhərində müxtəlif ölkələrdən gətirilən insanların qeyri-qanuni yerləşdirilməsi siyasətinin, həmçinin Ermənistan rəhbərliyinin təxribat xarakterli bəyanatlarının və hərəkətlərinin davamıdır".

Hüseyn Quliyev bildirib ki, Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təcavüz zamanı beynəlxalq hüququn norma və prinsiplərini, əsasən də beynəlxalq humanitar hüququn normalarını, 1949-cu il tarixli Cenevrə Konvensiyasını və onun Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud və məqsədyönlü şəkildə pozur, Azərbaycanın mülki əhalisinə, infrastrukturuna atəş açır, dinc əhaliyə qarşı cinayət törədir.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması tələb olunur. Ermənistan hələ də nə bu qətnamələrin tələblərini, nə də digər beynəlxalq təşkilatların saysız-hesabsız qərarlarını yerinə yetirib.

Diplomat vurğulayıb ki, son günlər Ermənistan silahlı qüvvələri Gəncə və Mingəçevir şəhərlərini, həmçinin Bərdə, Beyləqan, Ağcabədi, Tərtər, Goranboy rayonlarını raket atəşinə tutub, dinc əhali arasında ölənlər və yaralananlar var. "Bu, sözün əsl mənasında, müharibə cinayətidir və Ermənistan buna görə cavab verməli olacaq. Son məlumata görə, sentyabrın 27-dən bu günədək 28 nəfər öldürülüb, 170-dən çox insan yaralanıb, 900-dən çox ev zədələnib və ya tamamilə dağıdılıb", - deyə səfir bildirib.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

❖ ❖ ❖

Oktyabrın 8-də Azərbaycan Respublikasının Braziliyadakı səfirliyində bir qrup yerli və xarici mətbuat orqanının nümayəndələri üçün brifinq keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, otuza yaxın mətbuat nümayəndəsinin qatıldığı brifinqdə çıxış edən səfir Elxan Poluxov Ermənistanın sentyabrın 27-dən etibarən ölkəmizə qarşı həyata keçirdiyi növbəti təcavüz və düşmənə verilən layiqli cavab haqqında məlumat verib. Diplomat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında danışaraq, Azərbaycanın haqlı mövqeyinin beynəlxalq hüququn norma və prinsiplərinə söykəndiyini deyib. Münaqişənin həllinin əsas prinsiplərini formalaşdıran, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə toxunan E.Poluxov qətnamələrin hazırlanması və qəbulunda həmin vaxt Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan Braziliyanın da iştirakını xatırladıb. Səfir qətnamələrin qəbulundan ötən 27 il ərzində beynəlxalq aləm tərəfindən onların yerinə yetirilməsinin tələb edilmədiyini vurğulayıb.

Diplomat bildirib ki, Ermənistan beynəlxalq qanunvericiliyin tələblərini kobudcasına pozaraq münaqişə zonasından uzaq məsafədə yerləşən Azərbaycanın mülki və sənaye infrastrukturlarını, neft və qaz kəmərlərini, su anbarları və yaşayış məntəqələrini artilleriya və raket atəşinə tutur. Ermənistan buna görə məsuliyyət daşıyacaq.

Braziliyada çoxsaylı erməni icmasının yaşadığını söyləyən E.Poluxov Ermənistan rəhbərliyinin erməni diasporu vasitəsilə münaqişə zonasına xarici muzdluları cəlb etdiyini də jurnalistlərin nəzərinə çatdırıb.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

Tədbirdə jurnalistlərə münaqişəyə dair video və foto çarxlar nümayiş etdirilib, məlumatlandırıcı materialların toplandığı qovluqlar paylanıb.

❖ ❖ ❖

Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov bu ölkənin əsas və aparıcı araşdırma mərkəzi olan Belarus Strateji Tədqiqatlar İnstitutunun rəhbəri professor Oleq Makarovla görüşüb.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşün əsas məqsədi Belarus Strateji Tədqiqatlar İnstitutunun rəhbərliyini və Qafqaz regionu üzrə aparıcı elmi işçilərini ermənilərin mənşəyi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin xronikası, sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana növbəti hücumu, beynəlxalq təşkilatların və böyük dövlətlərin məsələyə baxışı, Azərbaycan tərəfinin münaqişənin həllində tutduğu mövqe və müharibənin başlanmasının səbəbləri barədə məlumatlandırmaqdan ibarət olub.

Həmçinin ictimai fikri həqiqətlərdən yayındırmağa yönəlmiş erməni təbliğatı barədə geniş açıqlama verilib. Postsovet məkanında birinci olan bu münaqişədən sonra beynəlxalq təşkilatların və ictimaiyyətin fəaliyyətsizliyi səbəbindən regionda yeni münaqişələrin yarandığını qeyd edib. Bildirib ki, bu münaqişənin tezliklə həll olunması digər münaqişələrin də uğurla həllinə təkan verə bilər.

Səfir BMT-də İraq, Suriya və Liviyaya dair qəbul edilmiş qətnamələrin məcburi surətdə, qısa zamanda həyata keçirilməsinə baxmayaraq, 1993-cü ildə BMT tərəfindən Ermənistanın Azərbaycanın işğal etdiyi əraziləri qeyri-şərtsiz boşaltmasına dair qəbul olunmuş 4 qətnamənin bu günə qədər icra olunmamasının ikili standartların tam sübutu olduğunu söyləyib. Bu məsələyə məsul olan ATƏT-in Minsk qrupunun isə tam fəaliyyətsizlik göstərdiyini vurğulayıb.

Bildirib ki, mövcud münaqişələrin həll olunması istiqamətində əməli işlər görülmədiyi üçün dünyada sabitlik pozulub və proses daha da dərinləşməkdə, gərginləşməkdə davam edir. Bu baxımdan Belarusun Azərbaycanın haqlı mövqeyinə ciddi dəstək verilməsi zəruridir.

"Müharibə getməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri bizim hərbi hissələrimizi və texnikalarımızı deyil, daha çox mülki obyektlərimizi və sənaye şəhərləri olan Gəncə və Mingəçeviri hədəfə alır. Ermənistan tərəfi Mingəçevir şəhərində su anbarını raket atəşinə tutmaqla bölgədə ciddi ekoloji fəlakət törətmək istəyib", - deyən səfir Belarusun dövlət informasiya saytlarında və televiziya kanallarında münaqişə ilə bağlı verilən tarixi məlumatların və digər faktların təhrif olunduğunu söyləyib. Səfir Ermənistan Azərbaycan münaqişəsinin tarixi barədə və Ermənistan silahlı qüvvələrinin Azərbaycana hücumuna dair hazırlanmış materialları O.Makarova təqdim edib.

O.Makarov münaqişənin həlli ilə bağlı Azərbaycan tərəfinin mövqeyini və verilən bütün məlumatları ciddi surətdə araşdıraraq səlahiyyətli qurumlara təqdim edəcəyini bildirib. O, Azərbaycanın beyin mərkəzləri ilə əməkdaşlıq etməkdə maraqlı olduqlarını deyib və ona münaqişə barədə yeni məlumatların göndərilməsini xahiş edib.

# Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovun “Real tarix və “Böyük Ermənistan” uydurması” kitabı İsrail dövlətinin rəsmi dövlət dili olan İbri dilində çap olunub

Tarix İnstitutundan verilən məlumata görə, “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” və digər fundamental tədqiqatlar kimi bu əsər də Prezident İlham Əliyevin çağırışlarına cavab olaraq yazılıb.







Monoqrafiyanın tərcüməçiləri Azərbaycan Dillər Universitetinin İsrail və Yaxın Şərq Araşdırmalar Mərkəzinin müdiri Emiliya Xudiyeva və mərkəzin əməkdaşı Günay Səfərova, redaktoru isə İsrailin Netanya Akademiyasının məzunu Roni Azik qızı Strovdur.

Kitabda ilk mənbələr əsasında ermənilərin Kiçik Asiyaya Balkan yarımadasından köçüb gəldikləri, mənşəcə qədim frigiyalılarla qohum etnos olduqları və Asiya qitəsinin aborigen əhalisi olmadıqları göstərilir. Sübut edilir ki, müasir ermənilər “Armeniya”, “armyane”, “erməni” adlarına Şərqi Anadoluya köçüb gəldikdən sonra sahib çıxmışlar. Tarixdə heç zaman “Böyük Ermənistan” adlanan dövlət qurumu olmayıb. “Böyük Ermənistan” anlayışı Azərbaycan, Türkiyə və Gürcüstan torpaqlarına sahib çıxmaq məqsədilə erməni saxtakarları tərəfindən sonradan uydurulub.

Əsərin birinci bölməsi “Ermənilər Kiçik Asiyaya Balkan yarımadasından köçüb gəlmişlər” adlanır və bu bölmə ermənilərin qədim Urartu irsinə sahib çıxmaq iddialarına qarşı kəskin cavabdır. Kitabda uydurma “Erməni yaylası” coğrafi anlayışına ayrıca bölmə həsr olunub. Bu bölmədə müəllif yazır ki, tarixi saxtalaşdıranlar XIX əsrin sonundan etibarən elmi dövriyyəyə daha bir uydurma termin - “Erməni yaylası” (“Armyanskoye naqorye”) coğrafi anlayışını da daxil ediblər. Əsərin son bölməsi isə tarixdə heç vaxt “Böyük Ermənistan” adlı dövlətin olmadığının isbatına həsr edilib.

Kitabın redaktoru Roni Strov Bakıda anadan olub və o, Yaqub Mahmudovun araşdırmalarını yüksək qiymətləndirərək nəşrdə belə yazıb: “İndi vətənim Azərbaycanın heyrətamiz tarixini, haradan gəldiyimi bilirəm. Çox şey öyrəndim. Hazırda doğulduğum ölkəyə daha çox aid olduğumu hiss edirəm. Bu kitabı oxumaqdan zövq aldım. Ümid edirəm ki, kitabdan mənim qədər oxucular da zövq alacaq”.

Xatırladaq ki, “Real tarix və “Böyük Ermənistan” uydurması” kitabı bundan əvvəl türk, rus, ingilis, gürcü, ərəb, fars, alman, ispan və fransız dillərində də nəşr olunub.

# 85 yaşlı nənə tikdiyi bayrağın Şuşada dalğalanmasını arzulayır

Tovuzun Ermənistanla sərhəddə yerləşən Ağdam kəndinin 85 yaşlı sakini Laçın Bağırova zəhmətkeşliyi ilə seçilir. Ailəsini dərzilikdən qazandığı pulla dolandıran Laçın nənə, həm də Qarabağ müharibəsi veteranının anasıdır.



AZƏRTAC xəbər verir ki, Laçın nənə Qarabağın düşmən tapdağından azad olunması, Qələbə xəbərini eşitmək arzusu ilə yaşayır. Gözləri zəif görür. Amma çətinliklə olsa da, iynəyə sap keçirib köhnə işini davam etdirir.

Hələ 30 il əvvəl üçrəngli bayrağımızın kütləvi istehsal edilmədiyi, çətin tapıldığı bir dövrdə Laçın nənənin tikdiyi bayraq sərhəd kəndin ən hündür yerində dalğalanıb, düşmənə göz dağı olub.

Onun indi tək bir arzusu var. Tikdiyi bayraqların Şuşada, Xankəndidə dalğalanması. “Əsgərlərimizə baxıb sevinirəm. Hər dəfə televizorda onları görəndə dua edirəm. Evdəkilər deyir ki, axı onlar səni eşitmirlər?! Deyirəm ki, olsun... ürəyimdən keçir, onlara dua edirəm, qələbə qazanıb, sağ-salamat evlərinə qayıtsınlar”, - deyə 85 yaşlı nənə bildirib.

Laçın Bağırova son illər tikiş maşınından istifadə etməyib. Çünki ölkəmizdə kütləvi bayraq istehsalı təşkil olunduğuna görə ona müraciət edən də olmayıb. Amma son günlər Azərbaycan Ordusunun qazandığı qələbələrdən həvəslənən nənə öz arzusu ilə bayraq tikməyə qərar verib. İstəyir ki, onun əl əməyi ilə ərsəyə gələn üçrəngli bayrağımız düşmən tapdağından azad edilmiş torpaqlarımızda, Şuşada dalğalansın!

İnşallah o günlərə az qalıb, Laçın nənə. Uğrunda minlərlə can fəda olan, bu yaşında min bir əziyyətlə tikdiyin üçrəngli bayrağımız tezliklə Laçınımızda, Şuşamızda, Xankədimizdə dalğalanacaq!

# Zəngilanlıların gözlədiyi gün yaxınlaşır

Söz vaxtına çəkər. 1993-cü ilin oktyabr ayı idi. Yağışlar başlamışdı. Zəngilanın bəzi kəndlərini ermənilər tutmuşdular. Ara-sıra atışmalar güclənir, yenidən səngiyirdi. Öz şəxsi avtomobilimdə rayon mərkəzinə doğru gedirdim. Yolda əsgərlərimizi görüb maşını saxladım. Üç nəfər idilər. Hara getdiklərini soruşanda, bizim kəndin arxasındakı posta getdiklərini bildirdilər. Dedim ki, əyləşin, bir-iki şey alacam, sonra birlikdə gedək.

Maşına əyləşən kimi aralarındakı cavan yatdı, yerdə qalan ikisi ilə söhbətləşməyə başladım. Məlum oldu ki, onların heç biri zəngilanlı deyil. Rayon mərkəzinə tapşırıq yerinə yetirmək üçün gedirlər. Çox söhbətdən sonra onlardan döyüş ruhu, irəlidə baş verəcəklərlə bağlı soruşdum. İçlərində bir azyaşlı olan mənə bu sözləri dedi:

- Hansı ruhdan danışırsan?! Hamının içində bir qorxu yaşayır. Ermənilər arxalı köpək kimi hərəkət edir. Yoxsa erməni nə karədir bizə qalib gələ.

Əsrarəngiz təbiətə malik Zəngilan elə bir yerə çevrilmişdi ki, buraya təşrif buyuranlar rayonun təbiətini seyr etməkdən doymurdular. Sovet dönəmində Azərbaycanın 4-5 turizm mərkəzi var idisə, onlardan biri də Zəngilan idi.

Arxeoloji araşdırmalar nəticəsində məlum olmuşdu ki, Zəngilanın ərazisi ən qədim yaşayış məskənlərindəndir. Sovet arxeoloqlarının böyük bir qrupu rayona ekspedisiyalara gəlir, insanın yaranışı barədə maraqlı məlumatlar toplayırdılar. Həmin dövrlərdə keçmiş SSRİ-nin müxtəlif ali məktəblərində Zəngilanın tarixinə həsr olunan tədbirlər, konfranslar keçirilmiş, ərazidə mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) qədim insan qalıqlarının tapılması barədə xüsusi kitablarda yazılmışdı. Adları çəkilən ərazilərdə ibtidai insanların yaşayışı, adət-ənənələri barədə məlumatlar Zəngilanın qədim tarixindən xəbər verirdi. Təxmini hesablamalara görə, həmin dövrdə Zəngilana hər il dünyanın müxtəlif ölkələrindən mindən artıq insan gəlirdi. Hazırda dünyanın müxtəlif ölkəsində həmin insanların xatirələrini özündə yaşadan yadigar fotoşəkillər var.

Bu gün isə rayonun bərəkətli düzləri, dağları, kəndləri, yaşayış evləri, səhiyyə, ticarət, mədəniyyət, idman obyektləri düşmənin işğalı altındadır. Dünyada ikinci, Avropada birinci olan nadir Çinar meşələri indi erməni qəsbkarları tərəfindən kəsilərək məhv edilib.

Bəli, 30 ilə yaxın bir müddət idi ki, torpaqlarımızın bir hissəsi düşmən əsarətində qalmış, igid vətən oğullarımız şəhid olmuşlar. İndi bu işğalın, qətllərin qarşısı igid ordumuz tərəfindən qətiyyətlə alınır. Aprel döyüşlərində ordumuz uğurlu əks-hücum əməliyyatı keçirərək işğal altında olan bəzi ərazilərimizi azad etdi. Qarabağa dönüş başladı. Cocuq Mərcanlıda yenidən həyat bərpa olundu. Lələtəpə yüksəkliyində üçrəngli bayrağımız dalğalandı. Amma ermənilər tərəfindən törədilən təxribatlar davam edir.

Sentyabrın 27-də Ermənistan növbəti təxribata əl atdı - səhər saatlarında mövqelərimizi və mülki obyektlərimizi atəşə tutdu. Azərbaycan rəhbərliyi düşməni susdurmaq üçün əks-həmlə əmri verdi. Rəşadətli ordumuz torpaqlarımızın düşməndən azad olunması üçün uğurlu əməliyyata başladı.

Deyirlər ki, haqsız aciz olanda həmişə qarşı tərəfə şər atmağa başlayır. Özgə ərazisini özününkü bilənlər bu gün tülkü kimi qaçırlar. Çünki müzəffər ordumuz işğal olunan əraziləri geri qaytarmaqda qətiyyətli və israrlıdır.

Ali Baş Komandan bildirmişdir: *“Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır!”*

İşğaldan azad edilən torpaqlarda tezliklə toylar qurulacaq, el-oba şənliklərdə sevinəcək. Anamız vətən torpağı soydaşlarımızın gücü sayəsində yenidən cənnətə dönəcək. Bu qələbənin varlığını bizə ruhumuz diktə edir.

***Nurəddin ƏLİYEV,***
***Zəngilan***

# Gözəgörünməz düşmənlə savaş davam edir

Sentyabrın 27-də ermənilərin növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızın bir qismini, vacib strateji yüksəklikləri, mövqeləri azad etdi. Düşmən üzərində hərbi üstünlüyümüz, qələbə xəbərləri bütün xalqın sevincinə, qüruruna səbəb oldu.

O da bir reallıqdır ki, əzəli, doğma torpaqlarımız uğrunda gedən Vətən savaşı digər cəbhədəki gözəgörünməz düşməni - COVID-19-u arxa plana keçirdi. Halbuki “səssiz müharibə” adlandırılan pandemiya hələ bitməyib, bütün dünyada yayılmağa davam etməkdədir. Hətta virus daha da aqressiv şəkildə yayılaraq əksər ölkələrdə sanitar-epidemioloji vəziyyəti pisləşdirib. Artıq dünyada koronavirusa yoluxanların sayı 37 milyonu, infeksiya qurbanlarının sayı isə 1,1 milyonu ötüb.

## Arxayınlaşmaq hələ tezdir

Azərbaycanda COVID-19 infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində həyata keçirilən preventiv tədbirlər nəticəsində, eləcə də əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına ciddi və məsuliyyətlə əməl etməsi, dövlət-vətəndaş həmrəyliyi sayəsində iyul ayından yoluxma hallarının kəskin azalmasına və stabilləşməsinə nail olunub. Görülən əks epidemik tədbirlərin səmərəliliyi nəticəsində xəstəxanalarda olan aktiv koronavirus xəstələrinin, eləcə də reanimasiya şöbələrində olan və süni tənəffüs cihazına qoşulan xəstələrin sayı kifayət qədər azalıb. Lakin Azərbaycanda vəziyyət nəzarət altında olsa da, yoluxma saylarındakı stabillik əhalini arxayınlaşdırmamalı, virusun yox olması kimi anlaşılmamalıdır.

Hazırkı dövr çox həssas bir dönəmdir. Avropa ölkələrində, o cümlədən qonşu ölkələrdə vəziyyət göz qarşısındadır. Dünyanın bir sıra ölkəsində virusun yenidən tüğyan etməsi, bir sıra Avropa ölkəsində məhdudiyyətlərin təkrar tətbiq olunması, qonşu ölkələrdə yeni dalğanın baş qaldırması bizi amansız düşmənə qarşı mübarizədə səfərbər etməlidir. Üstəlik, indi payız-qış mövsümünün başlanğıcındayıq. Dəfələrlə xəbərdarlıq edilib ki, qarşıdakı soyuq mövsümdə ikiqat diqqət və məsuliyyət tələb olunur. Koronavirusun dünyada geniş vüsət alması, respirator xəstəliklərin baş qaldırdığı bir dövrdə olduğumuzu nəzərə alsaq, daha da diqqətli olmağımız vacibdir. Aylardır davam edən qlobal təhlükə ilə mübarizədə sayıqlıq və məsuliyyət hissinin azaldılmaması mühüm rol oynayır. Kiçik bir ehtiyatsızlıq, hansısa məsuliyyətsizlik, laqeydlik sonradan böyük fəsadlar yarada bilər.

## Karantin rejiminin qaydalarına əməl olunması zəruridir

Bir neçə gün öncə Baş nazir Əli Əsədov Operativ Qərargah adından vətəndaşlara müraciət edərək koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə tətbiq edilən xüsusi karantin rejiminin davam etdiyini xatırladıb:

“Vətəndaşlarımız arasındakı emosional ruh yüksəkliyi təmasların artması ilə müşahidə olunur ki, bu da davam edən koronavirus xəstəliyi fonunda insanların sağlamlığına böyük təhlükələr yarada bilər. Məlum olduğu kimi, Azərbaycanla qonşu olan, həmçinin dünyanın digər ölkələrində xəstəlik sürətlə yayılmaqdadır və ekspertlər bunu hətta ikinci dalğanın başlaması kimi qiymətləndirirlər. Bu, bizi daha ehtiyatlı olmağa sövq edir.

İndiyədək vətəndaşlarımız xüsusi karantin qaydalarına ciddi şəkildə riayət ediblər və bunun nəticəsində xəstəlik hal-hazırda nəzarət altındadır. İndiyə qədər pandemiya ilə mübarizədə qazandığımız nailiyyətləri itirməmək üçün karantin rejiminin qaydalarına əməl olunması zəruridir. Eyni zamanda, dövlətimiz, xalqımız və milli təhlükəsizliyimiz üçün belə bir mürəkkəb dövrdə karantin qaydalarına əməl olunması virusla mübarizədən daha böyük əhəmiyyətə malikdir. Bu işdə hər bir vətəndaşımızın töhfəsi təqdirəlayiqdir”.

Müraciətdə bildirilib ki, karantin rejiminin tələblərinə riayət edilmədiyi hallarda aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlər görüləcək. Bununla əlaqədar aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib və onlar nəzarət tədbirlərini daha sərt və ciddi şəkildə davam etdirməlidirlər: “Belə bir mürəkkəb dövrdə torpaqlarımızın azad olunması uğrunda göstərdiyimiz birlik, vətəndaş həmrəyliyi və intizamın görünməz düşmən olan koronavirus xəstəliyi ilə mübarizədə də göstərilməsi olduqca vacibdir. Odur ki, hər bir vətəndaşa müraciət edərək karantin rejiminin tələblərinə daha ciddi əməl etməyə, bununla da bütün gücümüzü işğalçı düşmənlə mübarizə üçün səfərbər etməyə çağırırıq”.

## Paytaxtda növbəti dezinfeksiya işləri həyata keçirilib

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri ilə bağlı tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtda epidemiyaya qarşı işlərin daha da genişləndirilməsi məqsədilə kompleks tədbirlər davam etdirilir. Şənbə və bazar günləri paytaxtın həm mərkəzi, həm də qəsəbə və yaşayış massivlərindəki küçələrdə dezinfeksiya işləri aparılıb.

Oktyabrın 10-da Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən paytaxt üzrə lokal ərazilərdəki əsas küçə, prospekt və yollarda kommunal təsərrüfat xidmətlərinin 40 ədəd xüsusi texnikası və 2 min əməkdaşının iştirakı ilə xüsusi kimyəvi maddələrlə növbəti - on dördüncü dəfə əlavə gücləndirilmiş dezinfeksiya işləri həyata keçirilib. Bununla yanaşı, Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin əməkdaşları xüsusi qrafikə uyğun olaraq qurumun balansındakı yaşayış binalarında, lift kabinələrində, həyətlərdə və yaşayış məhəllələrində, buradakı idman-əyləncə qurğularında, məişət tullantılarının atıldığı konteyner meydançalarında tibbi-profilaktik və dezinfeksiya tədbirlərini davam etdirirlər.

## Koronavirusa qarşı mübarizəni dayandırmamalıyıq

Bəzən pandemiyanı müharibə ilə müqayisə edərək, onu “gözəgörünməz düşmən”, “səssiz müharibə” adlandırırlar. Bəli, qurbanlarının sayına görə pandemiya heç də müharibədən geri qalmır. Odur ki, torpaqlarımız uğrunda gedən savaş digər cəbhədəki düşməni, koronavirus cəbhəsində də döyüşümüzün davam etdiyini unutdurmamalıdır. Əksinə, ölkənin indiki durumunda arxa cəbhənin əsgərləri olaraq məsuliyyətimiz daha da artmalıdır. Vətən müharibəsində xalq olaraq göstərdiyimiz birliyi, həmrəyliyi COVID-19 cəbhəsində də göstərməliyik. Həm ön cəbhəyə, həm də həkimlərə kömək etmək, özümüzün və əsgərlərimizin sağlamlığını qorumaq üçün karantin qaydalarına xüsusi diqqət yetirməliyik.

Unutmayaq ki, koronavirus da bir düşməndir və ona qarşı mübarizə silahımızı yerə qoymamalıyıq. Gündəlik qoruyucu tədbirlərə - maskadan istifadə, əl gigiyenasına diqqət və sosial məsafəyə riayət etməklə gözəgörünməz düşmənə qarşı döyüşdə qalib gələ bilərik. Bu qaydalara ciddi şəkildə əməl etməklə cəmiyyətin, xalqın sağlamlığını qorumalıyıq. Unutmayaq ki, sağlam cəmiyyət və xalq bütün cəbhələrdə düşmənə qalib gələ bilər.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Azərbaycanda koronavirus infeksiyasına 233 yoluxma faktı qeydə alınıb, daha 106 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 233 yeni yoluxma faktı qeydə alınıb, daha 106 nəfər sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 41 min 752 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 39 min 235 nəfər müalicə olunaraq sağalıb, 608 nəfər vəfat edib. Aktiv xəstə sayı 1909 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 169 min 656 test aparılıb. Dünənki test sayı isə 7594-dür.

## Əsgərə məktub

# Vətən eşqinə qurban

Vətən sənə oğul dedi, igid əsgər!
Evini, ailəni, yurdunu qorumağa səslədi!
Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir çağırışı ilə ayağa qalxan igid balam, düşmən tapdağında inləyən əbədi və əzəli torpaqlarımızı yağılardan təmizləməyin zamanıdır!



Ali Baş Komandanının “İrəli!” əmrini alan,yatağı nəm səngər, yorğanı atəş əsgərim! Ana ürəyim qan ağlasa da, bu məktubu sənə sonsuz qürur hissi ilə yazıram. Namərd düşmən torpağımıza göz dikdi, havadarları onların dəyirmanına su tökdü.

Musiqi beşiyimiz Şuşa, qartallar oylağı Kəlbəcər, ağ evli Ağdam, hər yeri bir səngər olan yalçın qayalı Laçın, Füzuli, Zəngilan, Cəbrayıl, Xankəndi, Ağdərə, Xocavənd... onlarla yaşayış məskənimiz işğalçı düşmənin ayaqları altında inlədi. Xocalını qan içində boğdu xain cəlladlar! Biz səbr, təmkin göstərdik. Dünya qanunlarına ümid bəslədik, sülh, əmin-amanlıq istədik. Çünki xalqımız sülhsevərdir, hansı millətə məxsusluğundan asılı olmayaraq, uşaqların, qadınların, gənclərin, qocaların şəhidliyini, şəhərlərin, kəndlərin viran qalmasını istəmir, əksinə, bütün insanların eyni günəş altında, eyni torpaq üstündə sakit, firavan yaşaması arzusundadır.

Əsgər oğul, biz anaları qınama! Bilirsənmi niyə?.. Sən doğulanda məkrli “hay”lar kimi, qulağınıza “erməni bizim düşmənimizdir” sözünü söyləmədik. Qəlbin sevgi, mərhəmət, məhəbbət nuru ilə dolsun deyə, hətta tarixin faciəli səhifələrindən dəqiq tanıdığımız düşmənin adını da nişan vermədik sənə...

Vətən sevgisi, vətənpərvərlik övladı düşmənçilik ruhunda böyütməklə olmur. Vətən sevgisi saf ana laylası ilə doğulur. Biz sizi gözəl vətənimizə sevgi ilə böyütdük, oğul! Qəlbinizdə nifrətə, kinküdurətə yer olmasın dedik, ruhunuz nurla bəslənsin istədik.

Canım oğul, igid əsgərim, biz analar sizinlə fəxr edirik! Sizin günü-gündən artan, alovlanan vətən eşqinizə qurban olum, deyirik!

Şəhid oğul, sən ölmədin, məğrur ölümünlə düşmənə dərs verdin. Qəlbin susmadı, ruhu göylərdə qürurla dolaşan, nəbzi hər ürəkdə döyünən şəhidim, sən şairin “Torpaq uğrunda ölən varsa, vətəndir” gerçəyini şərəfli ölümünlə - bir daha müqəddəs qanınla möhürləyib təsdiqlədin! Qorxu bilmədin, gənc yaşında ölümün gözünün içinə baxa-baxa döyüşə atıldın!

...Qoy, azğın düşmən tankdan, toptüfəngdən yox, Azərbaycan analarının torpaq, vətən sevgisi ilə böyütdüyü oğulların qəzəbindən qorxsun!

Dözümünə, səbrinə qurban, əsgərim! Otuz ilə yaxın, dur dedik, döz dedik, dözdün! Düşmən anlamadı, dünya anlamadı sülh istəyimizi. “Torpaqdan pay olmaz”,- dedik, düşmən olsa belə onun da övlad itkisinə ana ürəyimiz qıymadı.

Dövlət başçısı haqq işimizi dünyaya çatdırsa da, çox qulaqlar kar, çox gözlər kor oldu! Səbr kasamız doldu və daşdı.

Biz qisas istəmirik, müharibə istəmirik, insanlar həyatdan vaxtsız getsin, - istəmirik. Amma düşmənin gözü kor, qulağı kardır!

Gözünə dönüm, bağrımın başı yaradır! Döz, dur deyən dilim lal olaydı. Ürəyimə daş bağladım, oğul! Qoy atəş səsləri dünyanın lap sonunda eşidilsin! Topunun, tüfənginin odu-alovu dağları, daşları lərzəyə gətirsin!

Azad torpaqlara bayraq asan əlinə, o yerlərin səmasına baxan gözlərinə qurban, əsgərim! Dizin taqətdən, ürəyin təpərdən düşməsin!

Vətənin çörəyi, ana südü halalın olsun deyir, bu ana məktubunu sənə ərməğan iki bənd şeirlə bitirirəm:

*Qoru azad eldə azad gün görən*
*Bu yurdun oğlunu, qızını qoru!*
*Halal süfrəmizə Allah göndərən,-*
*Halalca tikəni, ruzunu qoru,*
*Ey Vətən əsgəri, Vətən əsgəri!*

*Qoru sərhədləri, yolu, körpünü,*
*Necə ki əkinci dəni qoruyar.*
*Qorusan beşikdə yatan körpəni,*
*Bil, Ulu Tanrı da səni qoruyar,*
*Ey Vətən əsgəri, Vətən əsgəri!*

***Rəhilə GÜLGÜN***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7454
Sifariş 2346
Qiyməti 40 qəpik